## HEYDƏR ƏLİYEV FONDUNUN NİZAMİ GƏNCƏVİ İRSİNİ TƏBLİĞ EDƏN DAHA BİR LAYİHƏSİ - "YEDDİ GÖZƏL" SƏRGİSİ MOSKVADA AÇILIB

Noyabrın 20-də Moskvadakı Ümumrusiya Xalq və Dekorativ-Tətbiqi Sənəti Muzeyində "Yeddi gözəl" sərgisi açılıb. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərginin açılış mərasimində iştirak edib. Sərgi Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Xalça Muzeyinin təşkilatçılığı, ölkəmizin Rusiyadakı səfirliyinin dəstəyi ilə keçirilir...



Bax səh. 2

## YENİ AZƏRBAYCAN PARTİYASI AZƏRBAYCANIN ƏN GÜCLÜ VƏ ƏZƏMƏTLİ SİYASİ TƏŞKİLATI KİMİ ÖZÜNÜ TƏSDİQ EDİB

Noyabrın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) mərkəzi qərargahında partiyanın yaradılmasının 26-cı ildönümü münasibətilə tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabana gələrək YAP-ın qurucusu, xalqımızın Ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın...



Bax səh. 4



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 22 noyabr 2018-ci il, cümə axşamı / № 221 (5348). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistana rəsmi səfər edib






## Prezidentin iş günü

Prezident İlham Əliyev Livan Respublikasının Prezidenti Mişel Auna təbrik məktubu göndərib.

Prezident İlham Əliyev Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaniyə başsağlığı məktubu göndərib.

Prezident İlham Əliyev Çingiz Əbdül Məcid oğlu Fərzəliyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

## Azərbaycanın regionlarında xalçaçılığın inkişafı diqqət mərkəzində saxlanılır

Tarixən Azərbaycanın bölgələrində xalçaçılıq sahəsində zəngin ənənələr formalaşıb. Sənətkarlar yüksək zövqlə toxuduqları xalçalarda yaşam fəlsəfələrini, həyata baxışlarını, inanclarını ilmələrin dili ilə ifadə ediblər. Yeni şəraitdə qeyri-neft iqtisadiyyatı sahəsində istehsal imkanlarının artırılmasını hədəfləyən respublikamızda ən qədim tətbiqi sənət növlərindən olan xalçaçılığın inkişafı da diqqət mərkəzində saxlanılır. Azərbaycan dövləti xalçaçılığın inkişafına maddi və siyasi dəstək tədbirlərini gücləndirməklə regionlarda iqtisadi aktivliyi təmin etmək, xarici bazarlara qeyri-neft sektorundan ixrac həcmlərini artırmaq kimi məqsədləri hədəfləyib. Regionlarda xalçaçılıq üzrə yeni istehsalatların fəaliyyətə başlaması...

Bax səh. 8

## Azərbaycan-Belarus münasibətləri dostluq və strateji tərəfdaşlığa əsaslanır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 19-da Belarus Respublikasına rəsmi səfəri yerli və beynəlxalq medianın diqqət mərkəzindədir. Ekspertlər bu səfərin iki ölkə arasında müxtəlif sahələri əhatə edən...



Bax səh. 6



## MOSKVADA MDB DÖVLƏTLƏRİNİN TƏHLÜKƏSİZLİK ŞURALARI KATİBLƏRİNİN ALTINCI GÖRÜŞÜ KEÇİRİLİB

Noyabrın 21-də Moskvada MDB dövlətlərinin təhlükəsizlik şuraları katiblərinin VI görüşü keçirilib. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin başçılıq etdiyi nümayəndə heyəti iştirak edib...

Bax səh. 3

## AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİNİN, TÜRKİYƏNİN VƏ GÜRCÜSTANIN BAŞ QƏRARGAH RƏİSLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜNÜN YEKUNLARINA DAİR PROTOKOL İMZALANIB

Noyabrın 21-də Azərbaycanın müdafiə nazirinin, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin və Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin Bakıda keçirilən üçtərəfli görüşünün yekunlarına dair birgə protokol imzalanıb. AZƏRTAC xəbər verir ki, sənədi Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının Baş Qərargah rəisi, ordu generalı Yaşar Güler və Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-mayor Vladimer Çaçibaia imzalayıblar. İmzalanma mərasimindən sonra kütləvi informasiya vasitələrinin nümayəndələri üçün brifinq təşkil olunub. Bakıda Azərbaycan, Türkiyə və Gürcüstan ordu rəhbərlərinin görüşünün üç qardaş ölkənin dövlət başçılarının tapşırığı ilə...

Bax səh. 6



## TÜRKDİLLİ ÖLKƏLƏRİN PARLAMENT ASSAMBLEYASININ PLENAR İCLASI İZMİR BƏYANNAMƏSİNİN QƏBUL OLUNMASI İLƏ BAŞA ÇATIB

Noyabrın 21-də Türkiyənin İzmir şəhərində Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) 8-ci plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti...

Bax səh. 5

## *Aleksandru Giboi:* Yalan informasiyadan müəyyən maraqlar üçün istifadə olunur

Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə keçirilən və artıq ənənə halı almış Bakı Beynəlxalq Humanitar Forumu bəşəriyyəti düşündürən qlobal problemlərin həlli yollarının tapılması üçün müzakirələrin aparılması baxımından çox mühüm platformadır. Dünyaya önəmli sülh və dostluq mesajları verilən bu Forumun əhəmiyyəti ondan ibarətdir ki, burada humanitariyanın bir çox sahələri ilə yanaşı, media ilə bağlı mühüm məsələlərin müzakirəsi də diqqət mərkəzində olur. Bu nəcib təşəbbüsə görə Azərbaycan rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm. Bu sözləri Rumıniyanın AGERPRES milli xəbər agentliyinin sabiq baş direktoru...

Bax səh. 3

### Azərbaycanın öz multikultural və dini tolerantlıq dəyərlərini dünya ölkələri ilə bölüşmək niyyəti yüksək qiymətləndirilib

Almaniyada səfərdə olan Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadənin...



Bax səh. 3

### *Bahar Muradova:* Belarusa rəsmi səfər Azərbaycan Prezidentinin xarici siyasətinin növbəti uğurudur

Belarusa rəsmi səfər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasətinin növbəti uğurudur. AZƏRTAC xəbər verir ki...



Bax səh. 3

### Bakıda Azərbaycanın müdafiə nazirinin, Türkiyənin və Gürcüstanın Baş Qərargah rəislərinin iştirakı ilə üçtərəfli görüş keçirilib

Noyabrın 21-də Bakıda Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik...



Bax səh. 6

### *Vladimir Solovyov:* Rusiyalılar müasir Azərbaycanın həyatı barədə nə qədər çox məlumatlı olsalar, xalqlarımız arasında qarşılıqlı münasibətlər bir o qədər yaxşı olacaq

Noyabrın 21-də "Sputnik Azərbaycan" multimedia mətbuat mərkəzində...




Bax səh. 6

# Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistana rəsmi səfər edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Türkmənistana rəsmi səfərə gedib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycanın və Türkmənistanın dövlət bayraqlarının dalğalandığı Aşqabad beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi Türkmənistanın Baş nazirinin müavini, xarici işlər naziri Rəşid Meredov və digər yüksək vəzifəli şəxslər qarşılayıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Aşqabadda "Xalq xatirəsi" memorial kompleksini ziyarət edib.











Kompleksdə 1948-ci ildə baş vermiş zəlzələ zamanı həyatlarını itirmiş və Göytəpə döyüşlərində şəhid olmuş insanların xatirəsinə abidələr ucaldılıb.

Prezident İlham Əliyev "Əbədi şöhrət" abidəsinin önünə əklil qoyub.

Sonra dövlətimizin başçısı "Vətən müqəddəsliyi" muzeyi ilə tanış olub.

Muzeydə Göytəpə döyüşlərinin maketi quraşdırılıb, eyni zamanda, Göytəpə qalası, həmin döyüşlərin qəhrəmanları, döyüşlər zamanı istifadə olunan silah və libaslar, həmçinin digər eksponatlar nümayiş olunur.

Dövlətimizin başçısı 1881-ci ildə baş vermiş Göytəpə döyüşlərinin instalyasiyasına baxıb. Muzeydə, eyni zamanda, İkinci Dünya müharibəsi, onun qəhrəmanları, həmçinin həmin müharibə zamanı hərbçilərin istifadə etdikləri geyimlər, silah-sursat və digər eksponatlar sərgilənir.

Muzeyin növbəti bölməsi 1948-ci ildə Aşqabadda baş verən zəlzələyə həsr olunub. Burada həmin zəlzələ zamanı dağılan binaların qalıqları təqdim edilir.

Türkmənistanın inkişafına həsr olunan bölmədə müasir Aşqabadın görkəmini əks etdirən fotolar nümayiş etdirilir.

Prezident İlham Əliyev muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Aşqabadda Olimpiya Kompleksi ilə tanış olub.

2017-ci ildə Aşqabadda keçirilən qapalı məkanlarda və döyüş növləri üzrə V Asiya Oyunlarının ən əsas idman obyektləri bu Kompleksin ərazisində yerləşir.

Ümumi ərazisi 157 hektar olan Olimpiya Kompleksində qapalı məkanlarda və döyüş növləri üzrə V Asiya Oyunlarının açılış və bağlanış mərasimləri, bütün yarışlar, o cümlədən mükafatlandırma tədbirləri təşkil olunub. Kompleksdə ümumilikdə 30-dan çox müxtəlif təyinatlı idman qurğusu, həmçinin 45 min tamaşaçı tutumu olan Olimpiya stadionu, paralimpiya kompleksi və tibbi bərpa mərkəzi yerləşir.

Ərazidə, eyni zamanda, üzgüçülük arenası, voleybol, basketbol, futbol meydançaları, Olimpiya kəndi, qapalı velotrek, döyüş sənəti üzrə idman kompleksi, yüngül atletika arenası və tennis kortu, eləcə də idmanın müxtəlif növləri ilə məşğul olmaq üçün çoxfunksiyalı zal inşa olunub.

Aşqabad Olimpiya Kompleksində, həmçinin biznes-mərkəz, mehmanxanalar və sağlamlıq mərkəzi də fəaliyyət göstərir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Aşqabadda Türkmən milli xalça muzeyi ilə tanış olub.

Bu muzey Türkmənistan Prezidentinin Sərəncamı ilə 1993-cü ildə yaradılıb. Məqsəd Türkmənistanın xalçaçılıq sənətini qorumaq və inkişaf etdirməkdir. Muzeyin yaradıldığı gün hər il ölkədə Türkmən Xalçası Günü kimi qeyd olunur.

Burada muzeylə yanaşı, "Türkmənxalı" Dövlət Birliyinin inzibati binası da var. Muzey binasının ümumi sahəsi 5 min kvadratmetrdən çoxdur.

Bu muzeydə 2 mindən çox xalça nümunəsi toplanılıb. Onların sırasında nadir eksponatlar da var. Burada miniatür xalça nümunələri ilə bərabər, əl ilə toxunan ən böyük xalça kimi Ginnesin rekordlar kitabına düşmüş ümumi sahəsi 301 kvadratmetr olan "Altın asır" xalçası da nümayiş etdirilir. Bu böyük xalça Türkmənistanın müstəqilliyini bərpa etməsinin 10 illiyi münasibətilə toxunulub. Muzeydə köhnə xalçaların bərpası da həyata keçirilir.

Burada, həmçinin müxtəlif səpkili mədəni tədbirlər, sərgilər, beynəlxalq forumlar və konfranslar da təşkil olunur. Bu muzey Türkmənistanın mühüm mədəniyyət mərkəzlərindən biri hesab edilir.

Dövlətimizin başçısı muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

# Heydər Əliyev Fondunun Nizami Gəncəvi irsini təbliğ edən daha bir layihəsi - "Yeddi gözəl" sərgisi Moskvada açılıb







Noyabrın 20-də Moskvadakı Ümumrusiya Xalq və Dekorativ-Tətbiqi Sənəti Muzeyində "Yeddi gözəl" sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərginin açılış mərasimində iştirak edib.

Sərgi Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Xalça Muzeyinin təşkilatçılığı, ölkəmizin Rusiyadakı səfirliyinin dəstəyi ilə keçirilir.

Sərginin açılış mərasimində çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva deyib: **"Bu gün biz "Yeddi gözəl" sərgisinin açılışını edirik. Sərginin konsepsiyası XII əsr dahi Azərbaycan şairi Nizami Gəncəvinin poeması və dünya şöhrətli bəstəkar Qara Qarayevin baleti əsasında qurulub. Bu gün siz miniatürləri, xalçaları və zinət əşyalarını görə biləcəksiniz. Ekspozisiya, həmçinin Azərbaycan klassik musiqisi, klassik rəqslər və müasir incəsənət elementləri ilə zənginləşdirilib. Sərgiyə gələn tamaşaçılar yeddi gözəl və Bəhram şah əfsanəsinin sehrinə dalacaqlar. "Yeddi gözəl" poeması Şərq poeziyasının ən yaxşı nümunələrindən biridir. Poemanın dərinliyi, fəlsəfi aləmi xalçalar, kitab miniatürləri proyeksiyaları, dekorativ tətbiqi sənət nümunələri və instalyasiyalar vasitəsilə təqdim olunur. "Yeddi gözəl" baletinə həsr olunmuş və bu gün tamaşaçılara təqdim olunan arxiv materialları çox qiymətli tarixi arayışlardır. Bu gün siz qədim afişalar, baletin proqramları, fotoşəkillər vasitəsilə informasiya əldə edə bilərsiniz. "Yeddi gözəl" sərgisinin açılışı olduqca əhəmiyyətlidir. Çünki dahi Nizaminin əsərləri Azərbaycan ədəbiyyatının böyük bir dövrünü əhatə edir.**

**Əziz dostlar, müddətsiz yaradıcılıq göylərin bizə göndərdiyi nemətdir. O, insana daha da yaxşı olmaqda, öz qəlbinin dərinliklərinə varmaqda və ən ali qüvvə olan sevgini özü üçün açmaqda kömək edir.**

**Mən bu imkanı yaratdığına görə Yelena Titovaya təşəkkürümü bildirmək istəyirəm. Sərgi üzərində işləyən hər kəsə təşəkkür edirəm. Bu gün bizimlə olduğunuz üçün hamınıza minnətdaram".**

Ümumrusiya Xalq və Dekorativ-Tətbiqi Sənəti Muzeyinin direktoru Yelena Titova çıxış edərək bildirib ki, muzeyin Azərbaycandan olan həmkarları ilə çox yaxşı əlaqələri var. Heydər Əliyev Fondu və Azərbaycan Xalça Muzeyi ilə xüsusilə səmimi münasibətlərinin olduğunu diqqətə çatdıran Y.Titova deyib: **"Yeddi gözəl" şərqsayağı zərif, dərin fəlsəfi mənaya və valehedici dizayna malik sərgidir. Sərgidə müasir texnologiyalar, zəngin tarix, rəssamların ustalığı əksini tapıb. Sərgi salonlarının əksəriyyəti Qara Qarayevin yaradıcılığına həsr olunub. Onun "Yeddi gözəl" baleti nadir əsərdir. Lakin sərgi təkcə balet haqqında deyil, onun konsepsiyası daha genişdir. Ekspozisiya böyük Azərbaycan eposu - XII əsr dahi Azərbaycan şairi və filosofu Nizami Gəncəvinin poemasına əsaslanır".**

Y.Titova sərginin təşkilinə görə Heydər Əliyev Fonduna, Azərbaycan Xalça Muzeyinin əməkdaşlarına və bu işdə əməyi olan hər kəsə təşəkkürünü bildirib.

Son aylarda Moskvada Azərbaycana həsr olunmuş bir neçə əhəmiyyətli tədbirin keçirildiyini xatırladan Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu bildirib: **"Bu yaxınlarda - oktyabr ayının ortalarında Moskva meriyası ilə üzbəüz mərkəzi meydanda "Azərbaycanın payız sovqatları" sərgisi açılmışdı. Beş gün ərzində sərgini 70 mindən çox adam ziyarət etdi. Dünən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) böyük Azərbaycan mütəfəkkiri İmadəddin Nəsiminin büstünün açılışı, Moskva Dövlət Universitetində "Nəsiminin mənəvi irsi orta əsrlər Şərqinin tarixi-mədəni kontekstində" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilib. Bu gün bu gözəl muzeydə, özü-özlüyündə muzey olan bu nadir binada "Yeddi gözəl" sərgisi açılır".**

Tədbirlərin təşkilinə görə Heydər Əliyev Fonduna təşəkkürünü ifadə edən diplomat deyib: **"Bütün bu tədbirlər Heydər Əliyev Fondunun dəstəyi sayəsində ərsəyə gəlib. Mən, həmçinin bu tədbirlərin təşkilində fəal iştirakına və yardımına görə Leyla xanıma minnətdarlığımı bildirmək istəyirəm. Nəsiminin xatirə abidəsinə görə xüsusi təşəkkür edirəm. Bu abidə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu (MDBMİ) kimi bir universitetdə qoyulub. Universitetə gələn hər yeni nəsil Nəsimi haqqında daha çox məlumat əldə edəcək. Bugünkü tədbirə gəldikdə isə sərgi iki xalqın və ölkənin həyatında əlamətdar hadisədir. Mən sizin hamınıza xoş ovqat arzu edirəm ki, bu sərgi xatirələrinizdə qalsın".**

Sərginin ekspozisiyasının konsepsiyası XII əsr dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Yeddi gözəl" poeması və Azərbaycanın dünya şöhrətli bəstəkarı Qara Qarayevin eyniadlı baleti əsasında qurulub. Layihədə Azərbaycan mədəniyyəti xalça, zərgərlik və miniatür sənəti, müasir incəsənət, klassik musiqi və rəqsin sintezində təqdim olunur.

Ekspozisiya Heydər Əliyev Fondu, Azərbaycan Xalça Muzeyi və Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin eksponatlarından ibarətdir. Sərgi məkanı ziyarətçini Bəhram şah və yeddi gözəl haqqında əfsanəyə aparır. Azərbaycan mədəniyyətində mühüm rol oynayan bu ədəbi əsərin fəlsəfi aləmi xalça, kitab miniatürləri proyeksiyası, dekorativ-tətbiqi sənət əşyaları və instalyasiyalar vasitəsilə canlandırılır.

Sərgi məkanı ziyarətçini Bəhram şah və yeddi gözəl haqqında əfsanəyə aparacaq. Azərbaycan mədəniyyətində mühüm rol oynayan bu ədəbi əsərin fəlsəfi aləmi xalça, kitab miniatürləri proyeksiyası, dekorativ-tətbiqi sənət əşyaları və instalyasiyalar vasitəsilə canlandırılacaq.

Sərgidə nümayiş olunan "Miniatür" instalyasiyasını Azərbaycan rəssamı Rəşad Ələkbərov XVI əsrə aid "Kitab oxuyan gənc" Təbriz miniatürü əsasında yaradıb. Kompozisiyanın ideyası hər bir ziyarətçini qədim nağıl və əfsanələr aləminə aparan illüziya portalının yaradılması üzərində qurulub. Burada tamaşaçıların gözü önündə Nizaminin poeması canlanır. "Kitab oxuyan gənc" miniatürünü I Şah Təhmasib dövründə səfəvi rəngkarlığının zirvəsi sayılan Sultan Məhəmmədin yaratdığı bildirilir və bu əsər Parisdə V.Veverin kolleksiyasında qorunur.

Qara Qarayevin Nizami Gəncəvinin poeması əsasında yazdığı "Yeddi gözəl" baletindən səhnələr, həmçinin həmin tamaşaya aid arxiv materialları da sərginin ekspozisiyasına daxildir. Ziyarətçi burada özünü balet məkanında görür: onu Nizami qəhrəmanlarını canlandıran balerinalar əhatə edir.

Sərgi 2019-cu il fevralın 3-dək davam edəcək.

Qeyd edək ki, Heydər Əliyev Fondu dahi Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığının yaşadılması və dünyada tanıdılması istiqamətində bu günədək bir sıra layihələr həyata keçirib. Bunların sırasında Gəncədə Nizami Gəncəvi Muzeyinin yaradılmasını, Fransa və onun regionlarında şairə həsr olunan sərgi və konfransların təşkilini, Romada Nizami Gəncəvinin abidəsinin ucaldılmasını, Sankt-Peterburqda Nizami Gəncəvi bağının yaradılmasını, Nizami Gəncəvinin "Xəmsə"sinin yeni formatda - "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İskəndərnamə" poemalarının Azərbaycan dilində ilk dəfə bir kitab şəklində nəşr olunmasını və digər layihələri qeyd etmək olar.

# Moskvada MDB dövlətlərinin təhlükəsizlik şuraları katiblərinin altıncı görüşü keçirilib








Noyabrın 21-də Moskvada MDB dövlətlərinin təhlükəsizlik şuraları katiblərinin VI görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin başçılıq etdiyi nümayəndə heyəti iştirak edib.

Görüşün gündəliyinə Əfqanıstan İslam Respublikasındakı vəziyyət, həmin ölkədə fəaliyyət göstərən terrorçu təşkilatların MDB-nin üzvü olan dövlətlərin təhlükəsizliyinə törətdiyi təhdidlər, terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə əməkdaşlıq, MDB məkanında bioloji təhlükəsizliyin təmin edilməsi ilə bağlı məsələlər daxil olunmuşdu.

Tədbir çərçivəsində, həmçinin informasiya və kommunikasiya texnologiyalarından cinayətkar məqsədlər üçün istifadənin qarşısının alınması sahəsində təşəbbüslər, faşizmin qəhrəmanlaşdırılmasının yolverilməzliyi və bir sıra digər məsələlərə dair məruzələr dinlənilib.

Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev tədbirdə məruzə ilə çıxış edib, müzakirə olunan sahələr üzrə Azərbaycan Respublikasının müsbət təcrübəsi barədə məlumat verib.

Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, həmçinin Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev və Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas ilə təhlükəsizliyin təmin edilməsində ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə edib.

## Azərbaycanın öz multikultural və dini tolerantlıq dəyərlərini dünya ölkələri ilə bölüşmək niyyəti yüksək qiymətləndirilib



Almaniyada səfərdə olan Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti Berlində bir sıra görüşlər keçirib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyəti əvvəlcə Almaniya Xarici İşlər Nazirliyinin xarici elm, təhsil, tədqiqat və mədəniyyət siyasəti üzrə müvəkkili, səfir Haydrun Tempel, din məsələləri üzrə müvəkkili, səfir Folker Berreshaym və Cənubi Qafqaz və Mərkəzi Asiya şöbəsinin diplomatı Aksel Bayerlə görüşüb.

Daha sonra Almaniya Bundestaqında xarici siyasət komitəsinin üzvü, hakim Xristian-Demokratlar/-Xristian-Sosialist İttifaqı fraksiyasının Şərq Tərəfdaşlığı üzrə məruzəçisi Nikolas Löbellə görüş keçirilib.

Görüşlərdə Azərbaycanın öz multikultural və dini tolerantlıq dəyərlərini, eləcə də mədəniyyətlər və dinlər arasında əməkdaşlıq təcrübəsini dünya ölkələri ilə bölüşmək niyyəti və bu məqsədlə beynəlxalq tədbirlər həyata keçirməsi yüksək qiymətləndirilib. Bu xüsusda, Berlində keçirilmiş "Dinlər və mədəniyyətlərarası əməkdaşlıqdan dialoqa doğru" konfransının uğurlu təşkil edildiyi, Almaniya və digər dünya ölkələrinin dini icmalarının, eləcə də siyasi, elmi və mədəni dairələrinin orada yüksək səviyyədə təmsil olunduqları bildirilib. Dövlətimizin başçısı İlham Əliyevin dəstəyi ilə həyata keçirilən beynəlxalq tədbirlərin insanların multikulturalizm və tolerantlıq ruhunda maarifləndirilməsinə, dünyada sülhün və əməkdaşlığın təşviqinə mühüm töhfə verdiyi vurğulanıb və bu qəbildən olan tədbirlərin davamlı surətdə keçirilməsinin əhəmiyyəti qeyd olunub.



Allahşükür Paşazadə multikulturalizm və dini tolerantlığın Azərbaycan xalqının milli ruhundan irəli gəlməklə yanaşı, həm də dövlət siyasəti olduğunu deyib. O qeyd edib ki, Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu müasir müstəqil Azərbaycanın bugünkü daxili və xarici siyasətində bu dəyərlərin təşviqi, ölkəmizin etnik, dini və mədəni müxtəlifliyinin qorunub saxlanılması, eləcə də müxtəlif mədəniyyətlər və dinlər arasında körpülərin yaradılması xüsusi yer tutur. Şeyxülislam Azərbaycanın bu səylərini yüksək qiymətləndirdiyinə və dəstəklədiyinə görə Almaniya tərəfinə təşəkkür edib.

Görüşdə Azərbaycan nümayəndə heyəti, həmçinin dünyada vicdan azadlığının təmin olunması, dini radikalizmlə və ksenofobiya ilə mübarizə aparılması kimi mövzuları müzakirə edib, ölkəmizin bu sahələrdəki təcrübəsi və nailiyyətləri barədə məlumat verib. Eyni zamanda, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə fikir mübadiləsi aparılıb, torpaqlarımızın 25 ildən artıqdır ki, Ermənistanın işğalı altında olmasına baxmayaraq, ölkəmizin bu münaqişənin sülh yolu ilə həllinə çalışdığı vurğulanıb.

Azərbaycan nümayəndə heyətinə Prezident Administrasiyanın Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Milli Məclisin deputatı Cavanşir Paşazadə daxil olub. Nümayəndə heyətini ölkəmizin Almaniyadakı səfiri Ramin Həsənov müşayiət edib.

## Bahar Muradova: Belarusa rəsmi səfər Azərbaycan Prezidentinin xarici siyasətinin növbəti uğurudur



Belarusa rəsmi səfər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasətinin növbəti uğurudur.

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Milli Məclisin sədr müavini Bahar Muradova deyib.

Azərbaycanın və Belarusun strateji tərəfdaşlar olduğunu xatırladan Bahar Muradova qeyd edib ki, dövlətlərimiz bir çox vacib məsələlərdə qarşılıqlı faydalı əməkdaşlıq həyata keçirir. Bir çox məsələlərdə mövqe birliyi var. Bu səfər zamanı da bildirildi ki, hər iki dövlət bir-birinin maraqlarını qarşılıqlı şəkildə bütün müstəvilərdə qoruyur. Bunun nümunələri bu günə qədər göstərilib.

Milli Məclisin sədr müavini deyib ki, bu səfər həm müzakirə olunan məsələlər, həm imzalanan sənədlər, həm də hər iki prezidentin verdiyi bəyanatın ruhu ilə diqqəti cəlb etdi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, o cümlədən digər bu kimi münaqişələrin beynəlxalq hüququn prinsipləri, dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsipləri əsasında həll olunmasının vacibliyinin vurğulanması onu göstərir ki, getdikcə dünyada bu mövqeni dəstəkləyən ölkələrin sayı çoxalır. Azərbaycan və Belarus da bu kimi məsələlərdə öndə gedən dövlətlərdir. Eyni zamanda, xalqlarımızın, müvafiq dövlət qurumlarımızın yaxşı münasibətlərinin, o cümlədən prezidentlərimizin möhkəm dostluğunun əlaqələrə çox müsbət təsir göstərdiyinin şahidi oluruq.

## Aleksandru Giboi: Yalan informasiyadan müəyyən maraqlar üçün istifadə olunur




Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə keçirilən və artıq ənənə halı almış Bakı Beynəlxalq Humanitar Forumu bəşəriyyəti düşündürən qlobal problemlərin həlli yollarının tapılması istiqamətində səmərəli müzakirələrin aparılması baxımından çox mühüm platformadır. Dünyaya önəmli sülh və dostluq mesajları verilən bu Forumun əhəmiyyəti ondan ibarətdir ki, burada humanitariyanın bir çox sahələri ilə yanaşı, media ilə bağlı mühüm məsələlərin müzakirəsi də diqqət mərkəzində olur. Bu nəcib təşəbbüsə görə Azərbaycan rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm.

Bu sözləri Rumıniyanın AGERPRES milli xəbər agentliyinin sabiq baş direktoru, Avropa Xəbər Agentlikləri Alyansının baş katibi, VI Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçısı Aleksandru Giboi AZƏRTAC-a müsahibəsində söyləyib.

Aleksandru Giboi deyib ki, Forum çərçivəsində AZƏRTAC tərəfindən təşkil olunmuş **"Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid"** mövzusunda işçi sessiyada medianın gələcəyi ilə bağlı çox mühüm məsələlər müzakirə olundu. Mən də bu sessiyada çıxış etdim. Dəvətə və işçi sessiyanın yüksək səviyyədə təşkilinə görə AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanova təşəkkür edirəm.

A.Giboi deyib: **"Forum yüksək səviyyədə keçdi. "Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid" mövzusunda işçi sessiyanı isə Humanitar Forumun güzgüsü adlandırmaq olar. Fikir mübadiləsində iştirak etmək, dünya xalqlarının nümayəndələri ilə görüşmək, təcrübəmizi paylaşmaq son dərəcə vacibdir. Kommunikasiya hər hansı bir problemin həllində açar rolunu oynayır".**

İşçi sessiyanın mövzusuna toxunan A.Giboi yalan informasiyadan müəyyən maraqlar üçün istifadə olunduğunu bildirərək deyib: **"Feyk xəbərlər insanların həyatına, hətta dövlətlərin fəaliyyətinə təhlükə yaradır. Onların qarşısının alınmasında xəbər agentlikləri çox vacib rol oynayır. Bu möhtəşəm forum çərçivəsində medianın problemlərinə xüsusi yer ayrılması çox sevindiricidir".**

# Yeni Azərbaycan Partiyası Azərbaycanın ən güclü və əzəmətli siyasi təşkilatı kimi özünü təsdiq edib

## *Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü münasibətilə toplantı keçirilib*

Noyabrın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) mərkəzi qərargahında partiyanın yaradılmasının 26-cı ildönümü münasibətilə tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabana gələrək YAP-ın qurucusu, xalqımızın Ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini - İcra katibi Əli Əhmədov YAP-ın yaranma tarixi, keçdiyi şərəfli yol və qazandığı möhtəşəm nailiyyətlər haqqında danışıb. Əli Əhmədov bildirib ki, Yeni Azərbaycan Partiyasının yaranması, keçdiyi şərəfli tarixi yol Azərbaycan tarixinin ən önəmli hadisələri sırasındadır. Əli Əhmədov qeyd edib ki, YAP nəinki təkcə Azərbaycan tarixində, yəqin ki, müasir dünyada ən uğurlu siyasi təşkilatlardan biri hesab oluna bilər. Onun sözlə-

əsas amil olub. YAP-ın əldə etdiyi qələbələr Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətlə və bu siyasətə vətəndaşlarımızın münasibətinin yüksək olması ilə bilavasitə əlaqədardır.

**“Yeni Azərbaycan Partiyası Azərbaycanın ən güclü və əzəmətli siyasi təşkilatı kimi özünü təsdiq edib. Bu gün YAP-ın sıralarında 725 min Azərbaycan vətəndaşı birləşib. Bu, möhtəşəm bir siyasi ordu deməkdir”,** - deyən Əli Əhmədov bildirib ki, səsvermə hüququ olan vətəndaşların təxminən 10 nəfərdən biri partiyamızın üzvüdür. Onun fikrincə, bu, böyük siyasi qüvvədir: **“YAP sıralarında bu qədər insanın birləşməsi və onun siyasətində yaxından iştirak etməsi vətəndaşlarımızın mütləq əksəriyyətinin Heydər Əliyev ideyalarına dərin inamı, eyni zamanda, Prezident İl-**



**Yeni Azərbaycan Partiyası oldu ki, xalqın arzu və istəklərini həyata keçirdi. Xalqın gələcəyini düşünən insanlar, 91 ziyalı cəmiyyətin mövqeyini ifadə edərək Yeni Azərbaycan Partiyasını yaratmaq üçün Ümummilli liderimiz Heydər Əliyevə müraciət etdilər. Onlar bu amilin ölkənin xilası üçün çox mühüm olduğuna Ulu öndərimizi inandıra bildilər və nəticə etibarilə 1992-ci ilin noyabr ayında YAP təsis olundu. Ona görə də xalqımız Ulu öndər Heydər Əliyevin həmin qərarını hər zaman minnətdarlıqla xatırlayır. Eyni zamanda, biz partiya veteranlarının cəsarətli, fədakar fəaliyyətini yüksək qiymətləndiririk. Çünki onlar insanları məhz bugünkü güclü Azərbaycan naminə səfərbər etməyi bacardılar”.**

YAP İdarə Heyətinin üzvü qeyd edib ki, 26 il əvvəl təsis olunmuş partiyamız bu gün

**nin özünəməxsus rolu var. Partiyamızın üzvləri seçkili orqanlarda, hakimiyyətin müxtəlif qollarında, o cümlədən parlamentdə dövlət siyasətinə dəstək olurlar. Onlar bu gün görülən bütün qlobal işlərə öz töhfələrini verirlər”,** - deyən B.Muradova onu da qeyd edib ki, bu gün YAP-ın təşkilati strukturları, insani resursları mütəşəkkil qaydada fəaliyyət göstərir. Onun sözlərinə görə, partiyanın Qadınlar Şurası və Gənclər Birliyi də uğurla çalışırlar: **“Partiyamızın qadınlar və gənclər qolu ölkəmizdə müxtəlif layihələr həyata keçirməklə ayrı-ayrı ölkələrin siyasi təşkilatları ilə də əməkdaşlıq edirlər. Bütövlükdə, partiyamızın özünün beynəlxalq fəaliyyəti xüsusilə təqdirəlayiqdir. YAP regionun yeganə siyasi təşkilatıdır ki, Avropa, Asiya, Amerika qitələrində fəaliyyət göstərən siyasi təşkilatlarla qarşılıqlı tərəfdaşlıq əlaqələri qurub. Eləcə də böyük ölkələrin nüfuzlu partiyaları ilə münasibətlər mövcuddur. Bu münasibətlər partiyalar səviyyəsində dövlətlərarası əməkdaşlığa töhfələr verir. Hesab edirəm ki, bu fəaliyyət region ölkələrinin**







## *__Əli Əhmədov__: YAP-ın tarixi keçmişi nə qədər əzəmətli və möhtəşəmdirsə, gələcəyinin daha da parlaq olacağına əminliklə inanırıq*

rinə görə, bu, ilk növbədə YAP-ın yarandığı vaxtdan bu günədək xalqa xidmət etməsi ilə əlaqədardır: **“Eyni zamanda, Azərbaycan xalqının öz taleyini YAP və onun liderləri ilə bağlamasının 26 illik təcrübəsi əsasında deyə bilərik ki, xalqımız YAP-ın siyasətindən tamami-**

**ham Əliyevin siyasətinə inamın ifadəsidir. Əgər vətəndaşların qəlbindən gələn bu istək olmasaydı, YAP sıralarında 725 min nəfərin cəmləşməsi mümkün olmazdı”.**

YAP-ın Azərbaycandakı siyasi ab-havanı müəyyənləşdirdiyini deyən Əli Əh-

xatırladıb. Onun sözlərinə görə, məhz belə bir vaxtda Azərbaycanın gələcəyini düşünən ziyalılar Ümummilli lider Heydər Əliyevə müraciət etdilər. YAP-ın yaranmasından qısa müddət sonra Ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıtdığını deyən natiq

**müasir Azərbaycanın bugünkü və gələcək inkişafı naminə hazırlayaraq siyasi arenaya çıxara bilib”.**

Güclü azərbaycançılıq ideologiyasının əsasının Ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu deyən Baş nazirin müavini bildirib ki, ölkəmiz Azərbaycanın

dünyanın, regionun tanınmış siyasi güc mərkəzi və Cənubi Qafqaz regionunda yerləşən ölkələr içərisində yaranan siyasi partiyalar arasında ən uzunömürlü və ən çox iqtidarda olan siyasi partiyadır. Onun sözlərinə görə, 1993-cü ildə hakimiyyətə qayıdan Ulu öndər Heydər Əli-

**siyasi təşkilatları üçün nümunədir. Əgər 26 yaşı olan bir partiya 25 il iqtidardadırsa və xalqın mütləq əksəriyyəti onun siyasətini dəstəkləyirsə, bu, həmin ölkəyə yalnız uğur, rifah və çiçəklənmə gətirir. Bu illər ərzində əldə etdiyimiz ən böyük nailiyyətlər sırasın-**



*__Hacıbala Abutalıbov__: Ulu öndər Heydər Əliyevin dövlətçilik siyasətinə xas olan xüsusiyyətləri Prezident İlham Əliyev Öz əməli fəaliyyətində yüksək peşəkarlıqla həyata keçirir*



*__Bahar Muradova__: Əgər 26 yaşı olan bir partiya 25 il iqtidardadırsa və xalqın mütləq əksəriyyəti onun siyasətini dəstəkləyirsə, bu, həmin ölkəyə yalnız uğur, rifah və çiçəklənmə gətirir*



*__Mehman Musayev__: Heydər Əliyev irsi Azərbaycan gəncliyi üçün böyük məktəbdir*

**lə məmnundur. 26 il ərzində YAP-ın və onun liderlərinin ölkəmizə rəhbərlik etməsi Azərbaycan tarixinin ən parlaq səhifələrini təşkil edir. Bu illər ərzində Azərbaycan qarşısında duran bütün əzəmətli vəzifələri yerinə yetirib. Ölkəmiz simasını kökündən dəyişib, Azərbaycan dünyada, o cümlədən regionda mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirib, beynəlxalq miqyasda nüfuzu artıb. Bu gün dünyada Azərbaycan hörmətlə adı çəkilən ölkələr sırasındadır. Bu nailiyyətlərin əldə edilməsi bilavasitə YAP-ın liderlərinin müəyyənləşdirdiyi siyasətin nəticəsidir”.**

Yeni Azərbaycan Partiyasının yaranma səbəblərini və həmin dövrün ictimai-siyasi xarakterini təhlil edən Əli Əhmədov vurğulayıb ki, Azərbaycan 1990-cı illərin əvvəllərində uçurum qarşısında idi. Belə bir vəziyyətdə Azərbaycanın xilası yolunu Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışında görən ziyalılar Ulu öndərin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaranması təşəbbüsünü irəli sürdülər. Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi.

Bildirilib ki, Heydər Əliyev siyasətinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi YAP-ın sonrakı inkişafını şərtləndirən

mədov qeyd edib ki, ölkəmizdə hər hansı siyasi hadisə YAP-ın iradəsindən kənarda mövcud ola bilməz. **“Bu mənada, YAP-ın mövcudluğu Azərbaycandakı sabitliyin və əmin-amanlığın təməl prinsiplərindən birini təşkil edir. İnanırıq ki, YAP-ın şərəfli tarixi uzun illər davam edəcək və bu tarixə yeni-yeni şanlı səhifələr yazılacaq. Uzun illər Azərbaycan vətəndaşları YAP iqtidarının faydasını görəcək və onun siyasətinə xidmət edəcək. Azərbaycan vətəndaşları ötən 26 ilin təcrübəsi əsasında qəti əmin olublar ki, YAP-ın mövcudluğu, onun liderinin Azərbaycana rəhbərlik etməsi əmin-amanlıq, sabitlik, inkişaf, tərəqqi, insanların rifahının yüksəlməsi, milli maraqların qorunması, ölkəmizin beynəlxalq müstəvidə nüfuzunun artması, müasirləşməsi, yeniləşməsi deməkdir. YAP-ın tarixi keçmişi nə qədər əzəmətli və möhtəşəmdirsə, gələcəyinin daha da parlaq olacağına əminliklə inanırıq. YAP-ın sıralarında birləşən əzəmətli siyasi güc bu inamı reallığa çevirəcək”,** - deyə YAP Sədrinin müavini vurğulayıb.

Sonra çıxış edən Baş nazirin müavini, YAP İdarə Heyətinin üzvü Hacıbala Abutalıbov partiyamızın yaranması dövrünə nəzər salaraq o zamanlar xalqımızın çox çətin sınaqlarla üz-üzə qaldığını

Ümummilli liderimizin Azərbaycanı bütün təhlükələrdən xilas etdiyini söyləyib.

H.Abutalıbov qeyd edib ki, Ulu öndər ölkədə ictimai-siyasi sabitliyi təmin etdikdən sonra Azərbaycanın inkişaf strategiyasını müəyyənləşdirdi. Onun sözlərinə görə, Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət bu gün partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasət nəticəsində Azərbaycan dünyanın nüfuzlu ölkələri sırasındadır: **“Ulu öndər Heydər Əliyevin dövlətçilik siyasətinə xas olan xüsusiyyətləri Prezident İlham Əliyev Öz əməli fəaliyyətində yüksək peşəkarlıqla həyata keçirir”.**

O deyib ki, müstəqil dövlətimizin başçısı İlham Əliyev ölkə iqtisadiyyatının tərəqqisinə xidmət edən sosial-iqtisadi proqramların gerçəkləşməsi ilə yanaşı, milli mənəviyyatımızın təməl sütunlarından sayılan mədəniyyət siyasətinin hərtərəfli inkişafına da mühüm əhəmiyyət verir.

H.Abutalıbov əlavə edib ki, böyük xilaskar Heydər Əliyevin Azərbaycan üçün gördüyü işlərdən biri ölkəmizi əbədiyaşar məkana çevirmək məqsədi ilə Şərq dövlətçilik ənənələrinə xas olan şəkildə Öz siyasi məktəbini yaratması olub: **“O, bu siyasi məktəbin ən parlaq, layiqli nümayəndəsi İlham Əliyevi**

yeni lideri, respublikamızın Prezidenti İlham Əliyevə həvalə olunduqdan sonra O, qısa zaman kəsiyində, yüksələn xətt üzrə ictimai həyatımızın bütün sahələrini əhatə edən uğurlu və məqsədyönlü islahatlar həyata keçirib: **“Prezident İlham Əliyev müasir Azərbaycanda baş verən modernləşmə proseslərini düzgün məcraya yönəldərək yeni innovasiya və informasiya texnologiyalarının tətbiqi prosesinin daxili və qlobal mühitin tələblərinə uyğun səviyyədə gerçəkləşməsinə münbit şərait yaradıb”.**

H.Abutalıbov həmçinin Azərbaycanın inkişafı prosesində respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətini xüsusi vurğulayıb.

Milli Məclisin sədr müavini, YAP İdarə Heyətinin üzvü Bahar Muradova da çıxışında Yeni Azərbaycan Partiyasının ötən 26 il ərzində keçdiyi şərəfli yol, cəmiyyətdəki mövqeyi və qazandığı uğurlar barədə fikirlərini bildirib. YAP-ın yaranmasının çətin dövrə təsadüf etdiyini deyən B.Muradova o dövrdə partiyanın yaradılması uğrunda mübarizə aparan insanların fədakarlığını xüsusilə qeyd edib: **“O dövrdə fəaliyyət göstərən siyasi qüvvələr, o cümlədən hakimiyyət üzərinə düşən vəzifələri yerinə yetirə bilmədilər. Onlar ölkəni və xalqı çox təhlükəli vəziyyətlə üz-üzə qoydular. Yeganə siyasi qüvvə**

yev qısa müddət ərzində ictimai-siyasi sabitliyi bərpa edərək ölkəmizi inkişaf yoluna çıxardı. Onun sözlərinə görə, hazırda Heydər Əliyev siyasətini uğurla davam etdirən partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyev Azərbaycanı daha parlaq gələcəyə aparır. Respublikamızın Birinci vitse-prezidenti Mehriban Əliyevanın səmərəli fəaliyyətindən də danışan vitse-spiker həmçinin qeyd edib ki, Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti, onun Azərbaycanın beynəlxalq müstəvidə nüfuzunun daha da yüksəlməsi istiqamətindəki səyləri bu prosesdə Azərbaycan qadınlarının təmsilçiliyi kimi də qəbul olunmalıdır.

B.Muradova, eyni zamanda, müxtəlif zamanlarda ölkəmizdə sabitliyi pozmaq cəhdlərinin olduğunu və bu təxribatların qarşısının alınmasında YAP üzvlərinin öndə dayandığını bildirib: **“Ötən illər ərzində Azərbaycan əhəmiyyətli dərəcədə güclənib, dünyada nüfuzu artıb. Azərbaycanın güclənməsinə baxmayaraq, onun güclü olmasını istəməyən qüvvələr də boş dayanmırlar, yeni planlar qururlar. Təəssüf ki, həmin qüvvələrin arasında xaricdə yaşayan həmvətənlərimiz də var. Onların məqsədi ölkəmizdə sabitliyi pozmaqdır. Biz bu məsələyə ciddi diqqət yetirməliyik və həmişəki kimi onların qarşısında durmalıyıq”.**

**“Ölkəmizin qazandığı uğurlarda Yeni Azərbaycan Partiyasının üzvləri-**

**da üç amili qeyd etmək istəyirəm. Birincisi müstəqilliyimizdir ki, müstəqillik hər bir xalqın əvəzsiz sərvətidir. İkincisi Heydər Əliyev irsidir. Heydər Əliyev irsi bizim üçün bitməz-tükənməz enerji mənbəyidir və uğurlarımızın əsasını təşkil edir. Üçüncü amil isə Yeni Azərbaycan Partiyasıdır. Partiyamızda yüz minlərlə insan vahid amal uğrunda birləşib. Bu üç amil bizim üçün həm güc mərkəzi, həm davamlı, dayanıqlı istinadgah, həm də uğrunda mübarizə apardığımız hədəflərdir”.**

Sonra çıxış edən YAP-ın gənc üzvü Mehman Musayev Heydər Əliyev irsinin Azərbaycan gəncliyi üçün böyük məktəb olduğunu vurğulayıb. Ölkəmizdə uğurlu gənclər siyasətinin həyata keçirildiyini deyən M.Musayev bu siyasətdən bütün gənclərin bəhrələndiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, bu gün Prezident İlham Əliyev gəncliyin inkişafına xüsusi diqqət yetirir: **“Eyni zamanda, Yeni Azərbaycan Partiyası gənclərin öz bilik və bacarıqlarını artırmaq və ifadə etmək üçün geniş imkanlar yaradıb. Məhz buna görədir ki, ölkəmizin sağlam ruhlu gəncləri özlərinin gələcək siyasi talelərini YAP-la bağlayırlar”.**

Tədbirə yekun vuran Baş nazirin müavini, YAP Sədrinin müavini Əli Əhmədov Yeni Azərbaycan Partiyasının gələcəkdə daha böyük uğurlar qazanacağına əminliyini ifadə edib.

# Türkdilli Ölkələrin Parlament Assambleyasının plenar iclası İzmir Bəyannaməsinin qəbul olunması ilə başa çatıb

## *Azərbaycan Milli Məclisi sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti iclasda iştirak edib*

Noyabrın 21-də Türkiyənin İzmir şəhərində Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) 8-ci plenar iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti iclasda iştirak edib. Nümayəndə heyətinin tərkibinə Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, deputatlardan Hikmət Məmmədov, Nizami Cəfərov, İlham Əliyev, Sevinc Hüseynova, Sədaqət Vəliyeva, Ağalar Vəliyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxil olub.





Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Binəli Yıldırımın sədrliyi ilə keçirilən iclasa təşkilata digər üzv ölkələrin - Türkiyə, Qazaxıstan və Qırğızıstanın, həmçinin Macarıstan və Özbəkistan parlamentlərinin nümayəndə heyətləri, o cümlədən türk dünyasının birliyi və inkişafı istiqamətində fəaliyyət göstərən, eləcə də TÜRKPA-ya tərəfdaş olan təşkilatların rəhbərləri qatılıblar.



Çıxışında türk dünyasının birliyi və əməkdaşlığının faydalarından danışan TBMM-in sədri Binəli Yıldırım qeyd edib ki, uzun illər bir-birindən aralı düşən türkdilli xalqların həyatında baş verən fərqlilik xalqlarımızın zənginliyinə çevrilib. TÜRKPA-nın iclasında digər dəyərli qonaqlarla bərabər, Macarıstan və Özbəkistan parlamentlərinin nümayəndə heyətlərinin də iştirakı Assambleyanın gələcəkdə daha uğurlu fəaliyyətinə olan inamı artırır. Parlament sədri deyib ki, birlikdə qüvvət var. Əminəm ki, yaxın gələcəkdə sıralarımız genişlənəcək və daha böyük uğurlara imza atacağıq. Ötən on ildə böyük inkişaf yolu keçən TÜRKPA tarixi əhəmiyyətli hədəflərə doğru irəliləyir.

Çıxışında türkdilli dövlətlərin siyasi fəallığının dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərdiyini diqqətə çatdıran Milli Məclisin sədri Oqtay Əsədov qeyd edib ki, tarixin ən qüdrətli dövlətlərinə həyat vermiş, eyni zamanda, Şərq və Qərb mədəniyyətləri və sivilizasiyaları arasında mənəvi körpü rolunu oynamış türkdilli xalqlar tarix səhnəsində yenidən mütəşəkkil qüvvə kimi çıxış etməyə başlayıblar. Sədr deyib: **"Müasir dünya ölkələrinin, o cümlədən türkdilli dövlətlərin hər birinin özünəməxsus parlament diplomatiyası tarixi var. Azərbaycanda ilk parlament XX əsrin əvvəllərində yaradılıb. Bu parlamentin fəaliyyəti müsəlman Şərqində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin siyasi və hüquqi təməlini qurmaqla yanaşı, ölkəmizdə parlamentarizm ənənələrinin inkişafında son dərəcə mühüm rol oynayıb. O dövrdə "parlament diplomatiyası" termini olmasa da, Azərbaycan dövlətinin xarici siyasətində parlament diplomatiyası vasitələrindən geniş istifadə edilirdi. Təkcə bir faktı qeyd edim ki, 1919-1920-ci illərdə Paris Sülh Konfransında Azərbaycanı təmsil edən nümayəndə heyətinə parlamentin sədri Əlimərdan bəy Topçubaşov başçılıq edirdi".**

TÜRKPA-ya üzv olan hər bir dövlətin uğurunun digər dövlətlərin də uğuru olduğunu vurğulayan Milli Məclisin sədri qeyd edib ki, bizim dövlətlərimiz siyasi, iqtisadi və hərbi cəhətdən nə qədər güclü olarlarsa, onların ümumi işimizə verə biləcəyi töhfələr də bir o qədər böyük olar.

Azərbaycanda həyata keçirilən siyasətin ölkəmizi müasir dünyanın dinamik inkişaf edən dövlətlərinin sırasına qoşduğunu vurğulayan Oqtay Əsədov qeyd edib ki, Xəzər neftini və qazını dünya bazarlarına çıxaran Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum və TANAP qaz kəmərləri istifadəyə verilib. Azərbaycanın və Orta Asiyanın karbohidrogen ehtiyatları Xəzər dənizi vasitəsilə dünya bazarlarına nəql edilir. Avropanın enerji xəritəsi yenidən formalaşdırılır. Dünya tarixində ilk transkontinental ticarət-kommunikasiya marşrutu olan Böyük İpək Yolu bərpa edilir. Ötən il İpək Yolunun fəaliyyəti üçün böyük önəmi olan Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Araşdırmalar göstərir ki, bu layihə Çindən Avropaya tranzit müddətini 30-35 gündən iki həftəyə qədər azalda bilər.

Beynəlxalq təşkilatlarda Azərbaycanla bağlı məsələlərin müzakirəsində nümayəndə heyətimizi dəstəkləyən bütün ölkələrin, xüsusən türkdilli dövlətlərin təmsilçilərinə bir daha təşəkkürünü bildirən Milli Məclisin sədri, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli üçün səylərimizdə daim bizimlə birlikdə olan qardaş Türkiyəyə minnətdarlıq ifadə edib.

Ötən dövrdə TÜRKPA-nın böyük inkişaf yolu keçdiyini diqqətə çatdıran Qazaxıstan Parlamenti Məclisinin sədri Nurlan Niqmatulin qeyd edib ki, əməkdaşlıq əlaqələrinin genişlənməsi, həyata keçirilən hər bir layihə növbəti layihələrin əsasını qoyur. Bu mənada TÜRKPA və onun bütün strukturlarının fəaliyyəti türkdilli dövlətlər arasında əməkdaşlığın genişlənməsi, daha böyük faydalar əldə olunmasına əhəmiyyətli təsir göstərir.

Türkdilli dövlətlər arasında əməkdaşlığın bütün üzv ölkələrin maraq və mənafelərini təmin etdiyini söyləyən Qırğızıstan Joqorku Keneşinin sədri Dastanbek Cumabekov qeyd edib ki, türkdilli dövlətlər arasında əlaqələrin inkişafının qorunması üçün parlament diplomatiyasının gücləndirilməsinə böyük ehtiyac var. Bu diplomatiya türkdilli xalqlar arasında dostluq və qardaşlıq əlaqələrini möhkəmləndirir.

Türkdilli dövlətlərlə əməkdaşlığın əhəmiyyətindən bəhs edən Macarıstan parlamentinin sədri Laszlo Köver bildirib ki, ölkəsi xarici siyasətində türkdilli xalqlarla dostluq və əməkdaşlığa xüsusi diqqət yetirir. Macarların türkdilli xalqların ənənələrinə önəm verməsi təkcə mədəni və tarixi yaxınlıqla deyil, həmçinin mənəvi, geosiyasi və iqtisadi maraqlarla bağlıdır.

TÜRKPA-nın plenar iclasında qonaq statusu ilə iştirak etməkdən məmnunluğunu ifadə edən Özbəkistanın Qanunçuluq Palatası sədrinin müavini Xatamjan Dexgonov qurumun ali orqanının iclasında iştiraka dəvətə görə təşəkkürünü bildirib. Ötən dövrdə TÜRKPA-nın mühüm inkişaf yolu keçərək üzv ölkələrə fayda gətirdiyini diqqətə çatdıran Xatamjan Dexgonov təşkilatın gələcək fəaliyyətinə uğurlar arzulayıb. O, əminliklə deyib ki, parlamentlər arasında əlaqələrin inkişafı türkdilli xalqların maraqlarını təmin edir.

Rəhbərlik etdiyi təşkilatın həyata keçirdiyi layihələr barədə məlumat verən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) baş katibi Bağdad Amreev TÜRKPA ilə Türk Şurasının əlaqələrinin əhəmiyyətindən danışıb. Baş katib əminliklə ifadə edib ki, Türkiyənin sədrliyi dövründə hədəflərə çatmaq üçün fəaliyyət istiqamətləri daha da genişlənəcək.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) baş katibi Asəf Hacıyev qeyd edib ki, bölgə üçün olduqca böyük layihələrin həyata keçirilməsinə baxmayaraq, inkişaf və tərəqqi üçün mane olan təhlükəli məsələlər var. Münaqişələr, qaçqın və məcburi köçkün problemləri əməkdaşlıq üçün başlıca problemə çevrilib. Azərbaycanda bir milyondan çox qaçqın və məcburi köçkün var, Türkiyə üç milyon qaçqına sığınacaq verib, hökumətlər onların gündəlik xərcini qarşılayır. Dünya ictimaiyyəti bunları görmürmü? Müasir dünyanın sürətlə dəyişdiyini və yeniləndiyini qeyd edən Asəf Hacıyev bildirib ki, kənar təsirlərə davam gətirməyin yolu yüksək elm və təhsildən keçir. Bu mənada elm və təhsil sahəsində əlaqələrin genişlənməsi birgə əməkdaşlığın əsasıdır.



Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) həyata keçirdiyi layihələrin əhəmiyyətindən danışan qurumun baş katibinin müavini Firat Purtaş diqqətə çatdırıb ki, TÜRKSOY ortaq dil, mədəniyyət, tarixi irasların qorunması və inkişafı baxımından böyük uğurlar qazanıb. Bu baxımdan təşkilatın həyata keçirdiyi ən mühüm strategiyalardan biri "Türk dünyası mədəniyyət paytaxtı" layihəsidir. Astanadan başlanan bu proses çərçivəsində hazırda Türkiyənin Kastamonu şəhəri dünyaya tanıdılır.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə bağlı sənədlərin təsdiq üçün üzv ölkələrin parlamentlərinə göndərildiyini diqqətə çatdıran qurumun prezidenti Günay Əfəndiyeva bu prosesin sürətləndirilməsinin zəruriliyini bildirib. O qeyd edib ki, rəhbərlik etdiyi Fond türkdilli xalqların mədəniyyəti və mirası məsələləri ilə bağlı problemləri zamanında ortaya çıxararaq, onların səbəblərini müəyyən edərək problemləri aradan qaldırmağı qarşısına məqsəd qoyub. Türk dünyasına sahib olduğu mədəni irsi araşdırmaq, onları dünyada tanıtmaq və gələcək nəsillərə çatdırmaq Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun başlıca məqsədidir. Azərbaycan Milli Məclisinin TÜRKPA-nın inkişafına böyük töhfələr verdiyini diqqətə çatdıran Günay Əfəndiyeva təbriklərini çatdıraraq, bu il Azərbaycan parlamentinin 100 illiyi qeyd edildiyi kimi, 90 il sonra da TÜRKPA-nın 100 illiyinin qeyd olunmasını arzulayıb.

İslam Əməkdaşlıq Təşkilatının, Xoca Əhməd Yasəvi Beynəlxalq Türk-Qazax Universitetinin, Türk Dünyası Mühəndislər və Memarlar İctimai Birliyinin, Dünya Türk Gəncləri Birliyinin nümayəndələri də yubiley təbriklərini çatdıraraq TÜRKPA ilə əməkdaşlığa xüsusi əhəmiyyət verdiklərini vurğulayıblar.

Çıxışlarda Türkdilli Ölkələrin Parlament Assambleyasının ötən dövrdəki fəaliyyəti yüksək qiymətləndirilib.

Plenar iclasda təşkilati məsələlərə də baxılıb.

Sonra TÜRKPA-nın komissiyalarının hesabatları, o cümlədən Türkdilli Ölkələrin Parlament Assambleyasının ətraf mühit və təbii ehtiyatlar komissiyasının sədri, Azərbaycan Milli Məclisinin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və qurumun sosial, mədəni və humanitar komissiyasının sədr müavini Sevinc Hüseynovanın hesabatları dinlənilib və qəbul olunub.

Qərara alınıb ki, Türkdilli Ölkələrin Parlament Assambleyasının 9-cu plenar iclası 2019-cu ilin sentyabrında Azərbaycanda keçirilsin.

Sonra Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırım, Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədov, Qazaxıstan Parlamenti Məclisinin sədri Nurlan Niqmatulin və Qırğızıstan Joqorku Keneşinin sədri Dastanbek Cumabekov birgə mətbuat konfransı keçiriblər.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin təşəbbüsü ilə təsis olunan TÜRKPA-nın ötən dövrdə böyük inkişaf yolu keçdiyini xatırladan parlament sədrləri təşkilatın qarşıya qoyduğu məqsədlərə doğru əzmlə irəlilədiyini söyləyiblər. Bildirilib ki, Prezident İlham Əliyevin diqqət və qayğısı ilə Bakıda TÜRKPA üçün hərtərəfli şəraitin yaradılması təşkilatın səmərəli fəaliyyətinə böyük təsir göstərir. Vurğulanıb ki, Türkdilli Ölkələrin Parlament Assambleyasının sırasının genişlənməsi bütün üzvlərin arzu və maraqlarını əks etdirir. Əminliklə bildirib ki, gələcəkdə Özbəkistan və Türkmənistan TÜRKPA və türkdilli ölkələrin və xalqların birliyi naminə çalışan digər təşkilatlarda üzv kimi təmsil olunacaqlar.

# Naqif Həmzəyev: Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanın yüksəlişinə, tərəqqisinə öz töhfələrini verib



**"21 noyabr 1992-ci il - Azərbaycan ictimai-siyasi fikir tarixinin ən əlamətdar, ən şərəfli səhifələrindən biridir. Məhz həmin gün müstəqil ölkəmizin inkişafında müstəsna xidmətləri olan Yeni Azərbaycan Partiyasının yarandığı gündür".** Bunu Yeni Azərbaycan Partiyası (YAP) Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev deyib. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyasının 26 illik tarixi müstəqil Azərbaycanın yeni tarixini əks etdirir. Partiya yarandığı gündən ölkədə həyata keçirilən hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu, demokratik inkişaf prosesində yaxından iştirak edib, müstəqil Azərbaycanın yüksəlişinə, tərəqqisinə öz töhfələrini verib. **"Bu gün böyük ruh yüksəkliyi ilə qeyd etdiyimiz Yeni Azərbaycan Partiyasının 26-cı ildönümü haqqında danışarkən ilk növbədə Ulu öndər Heydər Əliyevin uzaqgörənliklə müəyyənləşdirdiyi siyasi xətt əsasında Azərbaycanın inkişafı, tərəqqisi göz önündə canlanır, Onun xalq və dövlət qarşısındakı misilsiz xidmətləri hörmətlə, ehtiramla anılır",** - deyən millət vəkili qeyd edib ki, zamanın sınaqlarından uğurla çıxan Yeni Azərbaycan Partiyası ölkəmizdə Ulu öndər Heydər Əliyevin zəngin siyasi və dövlətçilik təcrübəsinə əsaslanan ən güclü, ən monolit siyasi təşkilat olduğunu, ictimai nüfuzuna görə onunla müqayisə edilə biləcək ikinci partiyanın mövcud olmadığını fəaliyyəti ilə təsdiq edib: **"Yeni siyasi fəlsəfə ilə, yeni baxışlarla ölkənin siyasi meydanına qədəm qoyan partiya qısa bir zamanda böyük və nüfuzlu siyasi təşkilat olduğunu sübut edib. Azərbaycan Respublikasının Prezidenti, partiyanın Sədri cənab İlham Əliyevin dediyi kimi, Yeni Azərbaycan Partiyası Cənubi Qafqaz regionunun ən güclü siyasi qüvvəsinə çevrilib. Öz şərəfli tarixi missiyasını ləyaqətlə yerinə yetirən Yeni Azərbaycan Partiyası bütün situasiya və məqamlarda ardıcıl, məqsədyönlü şəkildə dövlətçilik, milli-mənəvi dəyərlərimizə sadiqlik mövqeyində dayanıb, xalqımızın arzularının təcəssümü, yekdil iradəsinin ifadəçisi kimi çıxış edib. Bu gün də Yeni Azərbaycan Partiyası ölkə Prezidenti cənab İlham Əliyevin uğurla həyata keçirdiyi islahatların reallaşmasında, ölkəmizin qüdrətinin artırılmasında yaxından iştirak edir".**

Naqif Həmzəyev vurğulayıb ki, Ulu öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasət, eyni zamanda, Prezident cənab İlham Əliyevin uğurla davam etdirdiyi xətt xalqın partiyaya sevgisini günbəgün artırıb: **"Ulu öndər Heydər Əliyevin "Yeni Azərbaycan Partiyasına xidmət etmək dövlətə, xalqa xidmət etmək deməkdir" fikirləri hər bir dövr üçün aktuallığını qoruyur. Partiyanın 252 ərazi ilk partiya təşkilatında 41819 nəfər partiya üzvünü birləşdirən Gəncə şəhər təşkilatı da böyük inkişaf yolu keçərək, öz sıralarını daim genişləndirib, partiyanın proqram və prinsiplərinə uyğun olaraq qarşıya qoyulan vəzifələrin icrasını ləyaqətlə yerinə yetirib. Sevindirici haldır ki, təşkilatın üzvlərinin 56,3 faizini savadlı, vətənpərvər, xalqını, Vətənini sevən gənclər, 62,7 faizini isə qadınlar təşkil edir. 2018-ci ilin yola saldığımız on bir ayında 1746 nəfər partiya sıralarına qəbul edilib. Bütün bunlar Gəncə sakinlərinin partiyanın bu gününə və gələcəyinə olan inamının göstəriciləridir. Partiya sıralarına gələnlərin əksəriyyətinin gənclər olması Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin xalqımızın bütün təbəqələrinin, xüsusən gənclərin arasında yorulmaz fəaliyyəti, misilsiz xidmətləri ilə böyük inam və etibar, hörmət və nüfuz qazanmasını təsdiq edir. Bu, ondan xəbər verir ki, Azərbaycan gəncliyi öz potensial imkanlarını ortaya qoymaq üçün bu partiyada meydan görür. İnanırıq ki, Yeni Azərbaycan Partiyasının keçdiyi 26 illik şərəfli tarixi yol əbədi olacaq və partiya ölkəmizin qüdrətinin artırılmasında öz dəst-xətti, imzası ilə yeni töhfələrini xalqımıza ərməğan edəcək".**

# Yeni Azərbaycan Partiyasının uğurlarının təməlində sözlə əməl birliyi dayanır



Noyabrın 21-də Şuşa rayon İcra Hakimiyyətinin və YAP Şuşa rayon təşkilatının birgə təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümünə həsr olunmuş tədbir keçirilib. Bu barədə AZƏRTAC-a Şuşa rayon İcra Hakimiyyətindən məlumat verilib.

Tədbirdə Şuşa rayon İcra Hakimiyyətinin başçısı, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətinin sədri-icmanın rəhbəri Bayram Səfərov, aparatın məsul əməkdaşları, rayonun icra strukturlarının, təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin rəhbərləri, YAP fəalları, gənclər iştirak ediblər.

Əvvəlcə iştirakçılar Ümummilli lider Heydər Əliyevin İctimai Birliyinin mərkəzi qərargahındakı büstü önünə gül dəstələri düzüblər.

Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra YAP-ın yaradılmasına həsr olunmuş videoçarx nümayiş etdirilib.

YAP Şuşa rayon təşkilatının sədri Təvəkkül Əliyev çıxış edərək Partiyanın 26 il ərzində keçdiyi şərəfli yoldan, rayon təşkilatının fəaliyyətindən, ictimai-siyasi tədbirlərdə iştirakından danışıb. Bildirib ki, 2300 üzvü olan YAP Şuşa rayon təşkilatının Qadınlar Şurası və Gənclər Təşkilatı da fəaliyyət göstərir.

Rayon icra hakimiyyətinin başçısı Bayram Səfərov Ulu öndər Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə həyatını Azərbaycan Respublikasının inkişafına, dünya dövlətləri arasında layiqli yer tutmasına həsr etməsindən, millətin gələcəyinə, təhsilin, səhiyyənin, iqtisadiyyatın, mədəniyyətin hərtərəfli inkişafına hər zaman qayğı ilə yanaşmasından, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində apardığı uğurlu daxili və xarici siyasətdən, sıralarında yüz minlərlə üzvü birləşdirən YAP-ın əsl ümumxalq partiyasına çevrilməsindən bəhs edib. B.Səfərov Prezident İlham Əliyevin Ulu öndərin siyasi kursunu uğurla davam etdirdiyini, ölkəmizin sosial-iqtisadi qüdrətinin gündən-günə artdığını, beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, Yeni Azərbaycan Partiyasının uğurlarının təməlində sözlə əməl birliyi dayanır.

Sonra YAP-ın sıralarına qəbul olunmuş bir qrup gəncə partiya vəsiqələri təqdim edilib.

# Türkiyənin və Gürcüstanın Silahlı Qüvvələrinin Baş Qərargah rəisləri Şəhidlər xiyabanını ziyarət ediblər



Bakıda üçtərəfli formatda keçiriləcək görüşdə iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülerin və Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-mayor Vladimer Çaçibaianın rəhbərlik etdikləri nümayəndə heyətləri noyabrın 21-də Şəhidlər xiyabanını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətlərinin üzvləri Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş vətəndaşlarımızın məzarları üzərinə gül dəstələri düzüb, şəhidlərimizin xatirəsinə ucaldılmış "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

# Bakıda Azərbaycanın müdafiə nazirinin, Türkiyənin və Gürcüstanın Baş Qərargah rəislərinin iştirakı ilə üçtərəfli görüş keçirilib



Noyabrın 21-də Bakıda Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovun, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülerin və Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-mayor Vladimer Çaçibaianın iştirakı ilə üçtərəfli görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə üçtərəfli formatda əməkdaşlığın inkişaf etdirilməsi, regional sabitliyin, o cümlədən bölgədə həyata keçirilən layihələrin təhlükəsizliyinin təmin olunması və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov tədbirdə çıxış edərək bildirib ki, Azərbaycan, Türkiyə və Gürcüstanın ordu rəhbərlərinin üçtərəfli toplantısı dövlətlərimizin strateji səviyyədə əməkdaşlığının bariz nümunəsidir. Bu toplantını üçüncü dəfədir keçiririk. Görüşün əsas məqsədi bölgədə sabitliyin və sülhün bərqərar olması, üç dost və qonşu dövlətin həyata keçirdiyi strateji-iqtisadi layihələrin təhlükəsizliyinin təmin edilməsi, ölkələrimizin Silahlı Qüvvələri arasında əməkdaşlığın dərinləşməsidir. Əminəm ki, bu toplantı yüksək səviyyədə keçiriləcək.

Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-mayor Vladimer Çaçibaia qeyd edib ki, bizim əlaqələrimizin böyük tarixi var. Biz regionda strateji tərəfdaşlarıq. Strateji tərəfdaşlıq çərçivəsində hərbi əməkdaşlığımız çox mühümdür. Regionda həyata keçirilən layihələrin təhlükəsizliyinin təmin edilməsi üçün bu əməkdaşlıq uğurla davam edir. Başa düşürük ki, bu, çox əhəmiyyətli görüşdür.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Güler qardaş Azərbaycanda olmaqdan məmnunluğunu bildirərək deyib ki, bu gün üç dost və qardaş ölkənin Silahlı Qüvvələrinin komandanlığı mühüm toplantını keçirmək üçün bir araya gəliblər. Bu, bizim üçüncü görüşümüzdür. Bir-birimizlə həm ikitərəfli, həm də üçtərəfli görüşlər keçirərək bölgədəki vəziyyəti müzakirə edəcəyik. Hərbi əlaqələrimiz mükəmməl şəkildə genişlənir. Strateji səviyyəyə çatmış hərbi əlaqələrimizi daha da inkişaf etdirmək üçün üzərimizə düşən vəzifələri yerinə yetirməyə çalışacağıq. İnanıram ki, bu gün keçirilən görüşdə çox vacib nəticələr əldə edəcəyik.

# Azərbaycanın müdafiə nazirinin, Türkiyənin və Gürcüstanın Baş Qərargah rəislərinin üçtərəfli görüşünün yekunlarına dair protokol imzalanıb



Noyabrın 21-də Azərbaycanın müdafiə nazirinin, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin və Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin Bakıda keçirilən üçtərəfli görüşünün yekunlarına dair birgə protokol imzalanıb.

AZƏRTAC xəbər verir ki, sənədi Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının Baş Qərargah rəisi, ordu generalı Yaşar Güler və Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-mayor Vladimer Çaçibaia imzalayıblar.

İmzalanma mərasimindən sonra kütləvi informasiya vasitələrinin nümayəndələri üçün brifinq təşkil olunub.

Bakıda Azərbaycan, Türkiyə və Gürcüstan ordu rəhbərlərinin görüşünün üç qardaş ölkənin dövlət başçılarının tapşırığı ilə təşkil olunduğunu bildirən Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov toplantıda regiondakı hərbi-siyasi vəziyyətin müzakirə edildiyini vurğulayaraq deyib: **"Bu görüş üç qardaş ölkə arasında əməkdaşlığın strateji səviyyədə olmasını təsdiq edir. Görüşün məqsədi üç dövlətin regionda həyata keçirdiyi strateji, iqtisadi layihələrin təhlükəsizliyinin təmin edilməsinə, bölgədə sülhün və sabitliyin qorunmasına dəstək verməkdir".**

Z.Həsənov qeyd edib ki, görüşdə işçi qrupunun bir neçə il ərzindəki fəaliyyətinin yekunlarına dair hesabat məruzəsi dinlənilib, gələn il üçün tədbirlər planı təsdiqlənib. Tədbirdə dövlətlərin ərazi bütövlüyünün, sərhədlərin toxunulmazlığının vacibliyi bir daha bəyan edilib. Üçtərəfli formatda hər üç ölkənin ordularının əməkdaşlığının inkişafının, hərbi, hərbi təhsil, hərbi tibb və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsinin əhəmiyyəti qeyd olunub. İqtisadi layihələrin təhlükəsizliyinin təmin olunması baxımından üçtərəfli komanda qərargah təlimlərinin davamlı təşkilinə dair fikir mübadiləsi aparılıb. Hazırda bu təlimlər Türkiyə ərazisində keçirilir. İclasda növbəti üçtərəfli görüşün Türkiyənin təklifi əsasında bu ölkədə keçirilməsi qərara alınıb.

Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-mayor Vladimer Çaçibaia qeyd edib ki, Azərbaycan-Türkiyə-Gürcüstan əməkdaşlığı regionda sabitliyin təmin olunmasına mühüm töhfə verir.

Gürcüstanın üçtərəfli birgə hərbi təlimlərdə fəal iştirak edəcəyini deyən V.Çaçibaia bildirib ki, bu təlimlər hərbi qulluqçularımız arasında təcrübə mübadiləsi baxımından xüsusi əhəmiyyətə malikdir. Eyni zamanda, hərbi təhsil və digər sahələrdə də fəal əməkdaşlıq edəcəyik. Regionda təhdidlərin artmasının müşahidə olunduğunu vurğulayan Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi qeyd edib ki, səylərimizi birləşdirərək bu təhlükələri aradan qaldıra bilərik. Azərbaycan və Türkiyə hər zaman Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyib, çətin günlərimizdə yanımızda olub. Biz bunu daim xatırlayırıq.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Güler isə deyib ki, Azərbaycan, Türkiyə və Gürcüstan arasında üçtərəfli formatda əməkdaşlığın inkişafı bizi son dərəcə məmnun edir.

Azərbaycan müdafiə nazirinin, Türkiyə və Gürcüstan Silahlı Qüvvələri Baş Qərargah rəislərinin üçüncü üçtərəfli görüşünün Bakıda yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirən Y.Güler deyib: **"Görüşdə bölgədə və dünyada sülhün, sabitliyin təmin olunmasının mühüm əhəmiyyət daşıdığı bu günlərdə, yaxın regionda baş verən proseslərlə bağlı ətraflı fikir mübadiləsi apardıq. Toplantıdakı müzakirələrimizdə, eləcə də ikitərəfli görüşlərimizdə dost və qardaş ölkələrimizin mövqelərinin bir-birinə yaxın olduğu bir daha vurğulandı. Xüsusilə, regional təhlükəsizlik, qarşılıqlı əməkdaşlıq, mövcud problemlərin sülh yolu ilə həlli, ölkələrin beynəlxalq hüquq əsasında ərazi bütövlüyünün qorunması məsələlərində Türkiyə, Azərbaycan və Gürcüstan olaraq eyni mövqedəyik".**

Ordu generalı Y.Güler bildirib ki, 2015-ci ildə Türkiyədə keçirilən ilk görüşdən sonra dost və qardaş ölkələrimiz arasında başlayan və gündən-günə güclənən üçtərəfli əməkdaşlıq bu gün uğurla davam etdirilir. Qonaq növbəti - dördüncü üçtərəfli görüşün Türkiyədə keçiriləcəyini bildirib, xoş arzularını diqqətə çatdırıb.

# Azərbaycan-Belarus münasibətləri dostluq və strateji tərəfdaşlığa əsaslanır

*Ekspertlər Azərbaycan Prezidenti İlham Əliyevin Belarusa rəsmi səfərinin iki ölkə arasında müxtəlif sahələri əhatə edən münasibətlərin daha da inkişafı baxımından mühüm əhəmiyyətə malik olduğunu bildirirlər*





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 19-da Belarus Respublikasına rəsmi səfəri yerli və beynəlxalq medianın diqqət mərkəzindədir. Ekspertlər bu səfərin iki ölkə arasında müxtəlif sahələri əhatə edən münasibətlərin inkişafı baxımından mühüm əhəmiyyətə malik olduğunu bildirirlər. Xüsusi olaraq qeyd edilir ki, səfər çərçivəsində keçirilən görüşlər zamanı səsləndirilən fikirlər tərəflər arasında strateji tərəfdaşlığa və qarşılıqlı etimada əsaslanan münasibətlərin uğurla inkişaf etdiyini göstərir.



***Sevinc Fətəliyeva:***
*Prezidentlərin Birgə Bəyanatında Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələbləri əsasında həllinin vacibliyinin vurğulanması mühüm əhəmiyyətə malikdir*



***Sahibə Qafarova:***
*Azərbaycan və Belarus beynəlxalq təşkilatlarda bütün məsələlərdə bir-birini dəstəkləyir*



***Elman Nəsirov:***
*Azərbaycan Prezidenti İlham Əliyevin Belarusa rəsmi səfəri ikitərəfli münasibətlərin strateji xarakterə malik olduğunu bir daha təsdiqlədi*

Məsələyə münasibət bildirən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, Yeni Azərbaycan Partiyasının (YAP) beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Belarusa rəsmi səfəri ölkələrimiz arasında münasibətlərin daha da inkişafı baxımından mühüm əhəmiyyətə malikdir: **"Azərbaycan ilə Belarus strateji tərəfdaş və dost ölkələrdir. Belarus ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlığın böyük potensialı var".**

Millət vəkili əlavə edib ki, iki ölkə arasında əlaqələrin dinamikasına nəzər saldıqda aydın olur ki, müxtəlif sahələri əhatə edən Belarus-Azərbaycan münasibətləri qarşılıqlı faydalı əməkdaşlığa əsaslanır, uğurla inkişaf edir. S.Fətəliyeva Belarusun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqe tutmasının əhəmiyyətini vurğulayaraq deyib ki, rəsmi Minsk Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həllinin tərəfdarıdır: **"Dövlət başçıları tərəfindən imzalanmış "Azərbaycan Respublikası Prezidenti və Belarus Respublikası Prezidentinin Birgə Bəyanatı"nda Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələbləri əsasında həllinin vacibliyinin vurğulanması mühüm əhəmiyyətə malikdir. Bu, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar beynəlxalq ictimaiyyətin Azərbaycanın haqlı və ədalətli mövqeyinə dəstəyinin daha da güclənməsinin növbəti nümunəsidir".**

Milli Məclisin deputatı Sahibə Qafarova isə qeyd edib ki, Azərbaycanın xarici siyasət kursunda Belarus Respublikası ilə qarşılıqlı faydalı münasibətlər mühüm yer tutur: **"Təsadüfi deyil ki, tərəflər arasında strateji tərəfdaşlıq səviyyəsində olan münasibətlər müxtəlif sahələri əhatə edir və uğurla inkişaf edir. Noyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasına rəsmi səfəri tərəflər arasında müxtəlif sahələri əhatə edən əməkdaşlığın daha da dərinləşdirilməsi baxımından müstəsna önəmə malikdir".**

S.Qafarova qeyd edib ki, səfər nəticəsində iki ölkə arasında kənd təsərrüfatı, iqtisadiyyat, hərbi-texniki, sosial müdafiə, hüquq-mühafizə və digər sahələri əhatə edən 9 sənəd imzalanıb. Şübhəsiz ki, ən vacib sənəd dövlət başçıları tərəfindən imzalanmış "Azərbaycan Respublikası Prezidenti və Belarus Respublikası Prezidentinin birgə bəyanatı"dır. Bəyanatda Azərbaycan Respublikası və Belarus Respublikasının strateji tərəfdaşlıq, qarşılıqlı etimad və hərtərəfli əməkdaşlıq çərçivəsində bir-biri ilə əlaqələri inkişaf etdirdikləri diqqətə çatdırılıb. Sözügedən bəyanatda həmçinin Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələbləri əsasında həllinin vacibliyi qeyd olunub ki, bu da ölkəmizin mövqeyinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin növbəti sübutudur.

Millət vəkili əlavə edib ki, Azərbaycan ilə Belarus arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsində dövlət başçıları arasında səmimi dostluq, qarşılıqlı etimad və dialoq mühüm rol oynayır: **"Bu kontekstdə bir məqamı xüsusi olaraq diqqətə çatdırmaq məqsədəmüvafiqdir. Belə ki, sözügedən səfər çərçivəsində Prezident İlham Əliyevin Belarus Prezidenti Aleksandr Lukaşenko ilə görüşü protokola görə, 45 dəqiqə nəzərdə tutulmuşdu, amma dövlət başçılarının təkbətək görüşü 2 saatdan artıq davam edib. Bu, hər şeydən əvvəl, iki ölkənin prezidentləri arasında yüksək qarşılıqlı etimadın bariz ifadəsidir. Eyni zamanda, ikitərəfli münasibətlərin məzmununun zənginliyini əks etdirir".**

**"Azərbaycan və Belarus beynəlxalq təşkilatlarda bütün məsələlərdə bir-birini dəstəkləyir. Bu, iki ölkə arasındakı münasibətlərin qarşılıqlı etimada əsaslandığını göstərir",** - deyə S.Qafarova əlavə edib.

**"Azərbaycan Prezidenti İlham Əliyevin Belarusa rəsmi səfəri ikitərəfli münasibətlərin strateji xarakterə malik olduğunu bir daha təsdiqlədi".** Bu fikirləri isə Milli Məclisin deputatı Elman Nəsirov deyib.

Onun sözlərinə görə, bu səfər bir daha bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycan və Belarus prezidentləri arasında, iki dövlət və iki xalq arasında çox sıx dostluq münasibətləri mövcuddur, münasibətlər qarşılıqlı hörmətə və qarşılıqlı faydalı əməkdaşlığa söykənir: **"Bu səfər, eyni zamanda, göstərdi ki, tərəflər arasında müxtəlif sahələri əhatə edən əlaqələr çox yüksək səviyyədədir. İqtisadi, ticarət əlaqələrimiz son il ərzində 3,5 dəfə artıb və çox geniş perspektivi var. Humanitar əlaqələrimiz dinamik inkişaf tempinə malikdir. Eyni zamanda, Belarusla Azərbaycan arasında hərbi-texniki sahədə sıx əməkdaşlıq mövcuddur. Bu baxımdan, sözügedən səfər çərçivəsində Azərbaycan və Belarus arasında hərbi-texniki sahədə qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi barəsində Anlaşma Memorandumu imzalanması olduqca əhəmiyyətlidir. Bu Anlaşma Memorandumundan çıxış edərək Azərbaycana hava hücumundan müdafiə sistemlərinin, hücum təyinatlı sistemlərin təchiz edilməsi üçün kontraktların imzalanması nəzərdə tutulub. Bundan əvvəl Azərbaycan Belarusdan Polonez raket sistemlərini, zirehli texnika və digər hərbi vasitələri alıb".**

**"Bəhs olunan səfər çərçivəsində aparılan müzakirələr bir daha göstərdi ki, Belarus Respublikası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində prinsipial və dəyişməz mövqeyə malikdir. Həmin mövqe ondan ibarətdir ki, bu münaqişə beynəlxalq hüququn ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və suverenlik prinsipi əsasında həllini tapmalıdır",** - deyən E.Nəsirov əlavə edib ki, Azərbaycan və Belarus beynəlxalq təşkilatlar çərçivəsində də aktiv qarşılıqlı fəaliyyət göstərir, bütün məsələlərdə bir-birini dəstəkləyir.

**Nurlan QƏLƏNDƏRLİ**

# Vladimir Solovyov: Rusiyalılar müasir Azərbaycanın həyatı barədə nə qədər çox məlumatlı olsalar, xalqlarımız arasında qarşılıqlı münasibətlər bir o qədər yaxşı olacaq




Noyabrın 21-də "Sputnik Azərbaycan" multimedia mətbuat mərkəzində Rusiya Jurnalistlər İttifaqının sədri Vladimir Solovyovun ölkəmizə səfərinin yekunlarına həsr edilmiş mətbuat konfransı keçirilib. Mətbuat konfransında informasiya məkanında ikitərəfli əməkdaşlığın perspektivləri mövzusuna da toxunulub.

Rusiya Jurnalistlər İttifaqının sədri başçılıq etdiyi qurumun fəaliyyəti barədə məlumat verib. O qeyd edib ki, 83 bölməsi olan Rusiya Jurnalistlər İttifaqının sıralarında 70 mindən çox jurnalist var. Bu, ölkənin jurnalistlər cəmiyyətinin elitasıdır. Rusiyadakı bütün jurnalistlərin təqribən 10-12 faizi bu ittifaqın üzvləridir. Rusiya Jurnalistlər İttifaqının sədrinin sözlərinə görə, ölkədə söz azadlığının müdafiəsi, jurnalistlərin peşəkar səviyyəsinin yüksək qalması üçün çox iş görülür. Rusiya Jurnalistlər İttifaqı Beynəlxalq Jurnalistlər İttifaqının üzvü olaraq, beynəlxalq aləmdə fəal iş aparır.

Vladimir Solovyov vurğulayıb ki, Azərbaycanda səfərdə olmasına və Prezident İlham Əliyevin onu qəbul etməsinə görə çox məmnundur. O, ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu, Azərbaycanda Rusiya mədəniyyətinə, Rusiya KİV-lərinə böyük hörmət bəsləndiyini vurğulayaraq deyib: **"Rusiyadakı oxucular, tamaşaçılar və dinləyicilər müasir Azərbaycanın həyatı barədə nə qədər çox məlumatlı olsalar, xalqlarımız arasında qarşılıqlı münasibətlər bir o qədər yaxşı olacaq".**

V.Solovyov daha sonra deyib: **"Noyabrın 19-da biz Azərbaycan Mətbuat Şurası ilə Rusiya Federasiyasının Jurnalistlər İttifaqı arasında Əməkdaşlıq haqqında Memorandum imzaladıq. Düşünürəm ki, bu, daha əhəmiyyətli, daha geniş əməkdaşlıq yolunda ilk addımdır".**

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov Azərbaycan və Rusiya jurnalistlərinin qarşılıqlı fəaliyyətinin və əməkdaşlığının vacib olduğunu qeyd edib, imzalanmış Memorandumun əhəmiyyətindən danışıb.

## Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü münasibətilə Qaradağ rayonunda konfrans keçirilib








Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 26-cı ildönümü münasibətilə Qaradağ rayonunda konfrans keçirilib. Qaradağ rayon Heydər Əliyev Mərkəzində baş tutan konfransı giriş sözü ilə açan rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov əvvəlcə Yeni Azərbaycan Partiyasının qurucusu, müasir Azərbaycanın banisi Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixindəki misilsiz xidmətlərindən danışıb. Qeyd olunub ki, Ulu öndər Heydər Əliyev ən çətin tarixi şəraitdə dahi lider kimi Azərbaycanı bütün bəlalardan xilas edib.

İcra Hakimiyyətinin başçısı YAP-ın yaranmasını zərurətdən doğan amil kimi dəyərləndirərək xüsusilə vurğulayıb ki, dövrün təxirəsalınmaz tələbindən və cəmiyyətimizin arzu, istəklərindən yaranan YAP ölkəmizin avanqard qüvvəsi kimi xalqımızın qarşısında dayanan vəzifələrin həll edilməsinə layiqli töhfəsini verib. Süleyman Mikayılov deyib ki, bu gün Ulu öndər Heydər Əliyevin zəngin siyasi və dövlətçilik təcrübəsinə əsaslanan Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edərək ölkəmizdə ən güclü, ən mükəmməl siyasi təşkilatdır və ictimai nüfuzuna görə onunla müqayisə edilə biləcək siyasi təşkilat yoxdur.

Tədbirdə çıxış edən YAP Qaradağ rayon təşkilatının sədri, partiyanın Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynov Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, Ulu öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində qazanılan uğurlardan geniş danışıb. O, daha sonra YAP-ın xalqımız və Azərbaycan dövlətçiliyi qarşısında böyük xidmətlərindən bəhs edib. Aydın Hüseynov bildirib ki, YAP yarandığı gündən xalqa, dövlətə xidməti fəaliyyətinin əsas xətti kimi qəbul edib. Millət vəkilinin sözlərinə görə, Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha da qüdrətlənməsi istiqamətində ciddi səylər göstərir. Millət vəkili deyib ki, Yeni Azərbaycan Partiyasının 26 illik fəaliyyəti dövründə ölkədə keçirilən bütün seçkilərdə uğur qazanmasını şərtləndirən əsas amillərdən biri məhz ona olan inam, həyata keçirdiyi siyasətə dəstəkdir.

Daha sonra konfransda çıxış edən Ə.Əmirov adına NQÇİ-nin rəisi Ramin Quliyev, SOCAR Metanol ərazi ilk partiya təşkilatının sədri Elnur Bağırov, gənc fəallar Nübar Abbaslı, Seyidməmməd Məmmədzadə və digərləri YAP-ın 26 illik fəaliyyəti dövründə Azərbaycan xalqı və dövlətçiliyi qarşısında misilsiz xidmətlər göstərdiyini, partiyamızın xalqımızın böyük dəstəyi ilə daim inkişaf etdiyini və gələcəyə doğru inamlı addımlarla irəlilədiyini vurğulayıblar.

Tədbirin sonunda Qaradağ rayonunun ictimai-siyasi həyatında fəallıq göstərən YAP üzvləri təltif olunublar. Həmçinin YAP sıralarına yeni qoşulan bir qrup gəncə partiya vəsiqələri təqdim olunub.

## Yeni Azərbaycan Partiyası xalqın partiyasıdır





Yeni Azərbaycan Partiyası (YAP) Astara rayon təşkilatında partiyanın yaranmasının 26-cı ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ümummilli lider Heydər Əliyevin rayondakı abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Tədbirdə çıxış edən Astara rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev bildirib ki, Ulu öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası həmişə öz məqsəd və amalına sadiq qalan, qarşısına qoyduğu vəzifələri uğurla həyata keçirən güclü bir siyasi təşkilatdır: **"Yeni Azərbaycan Partiyası xalqın partiyasıdır. Xalqımızın bütün təbəqələri bu partiyada birləşərək ölkəmizin inkişafına öz töhfələrini verirlər".**

Ümummilli lider Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıdışının müasir tariximizin ən şərəfli səhifəsi olduğunu vurğulayan Q.Ağayev qeyd edib ki, Ulu öndərin müdrik, uzaqgörən, qətiyyətli siyasəti, zəngin dövlətçilik təcrübəsi nəticəsində dövlət müstəqilliyimizin itirilməsi təhlükəsi və vətəndaş qarşıdurması aradan qaldırılaraq ölkəmizin sosial-iqtisadi inkişafı təmin olunub. Müasir Azərbaycanın qurucusu, Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasi xəttin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkədə siyasi və makroiqtisadi sabitliyə nail olunub, bütün sahələr üzrə köklü islahatlar aparılıb, davamlı sosial-iqtisadi inkişafın möhkəm təməli yaradılıb.

Diqqətə çatdırılıb ki, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı Astarada uğurla icra edilir. Astara şəhərində park-bulvar kompleksinin tikilib istifadəyə verilməsi, şəhərin içməli su təchizatının yenidən qurulması, minlərlə insanın yaşadığı ərazini əhatə edən Astara-Bala Şahağac, Ərçivan-Şuvi-Alaşa-Qapıçıməhəllə, Siyaku-Rinə, Deqədi-Pəlikəş, Taxtanakəran-Toradi, Taxtanakəran-Miki avtomobil yollarının, uzunluğu 274 kilometr olan Ələt-Astara avtomobil yolunun tikintisi rayonda turizmin, kənd təsərrüfatının və iqtisadiyyatın bütün sahələrinin inkişafını təmin edəcək.

Son illər Astarada 40-dan çox ümumtəhsil məktəbi tikilib və ya əsaslı şəkildə yenidən qurulub. Mərkəzi xəstəxana binası yenidən qurularaq ən müasir tipli avadanlıqla təchiz olunub. Astarada modul tipli elektrik və qaz kompressor stansiyalarının, Olimpiya İdman Kompleksinin tikilməsi, yol-infrastruktur layihələrinin uğurla icra olunması, xüsusən ucqar dağlıq ərazilərə rahat asfalt yolların çəkilməsi kimi mühüm əhəmiyyətə malik məsələlərin həlli dövlətimizin başçısının Astaraya və astaralılara göstərdiyi diqqət və qayğının əyani sübutudur.

Tədbirdə YAP Astara rayon təşkilatı Gənclər Birliyinin sədri Tural Eyvazovun partiyanın yaranmasının 26-cı ildönümü ilə bağlı məruzəsi dinlənilib.

Müzakirələrdə çıxış edən Astara Rayon Ağsaqqallar Şurasının sədri Hamlet Əliyev, rayon İcra Hakimiyyətinin məsul işçisi Elnur Rəsulov, Rayon Mərkəzi Xəstəxanasının həkimi Aytən Şiriyeva, təhsil şöbəsinin məsul işçisi Vüqar Şahbazov, Astara Pedaqoji Kollecinin müəllimi Leyla Əliyeva və başqaları YAP-ın keçdiyi şərəfli yoldan, əldə etdiyi uğurlardan danışıblar.

Tədbirdə YAP Astara rayon təşkilatının fəaliyyətində fərqlənən partiya üzvlərinin bir qrupuna fəxri fərman və qiymətli hədiyyələr, partiya sıralarına daxil olan gənclərə üzvlük vəsiqələri təqdim olunub.

## YAP Ağstafa rayon təşkilatında partiyanın yaranmasının 26-cı ildönümü münasibətilə tədbir keçirilib






Dünən Yeni Azərbaycan Partiyasının (YAP) Ağstafa rayon təşkilatında partiyanın yaranmasının 26-cı ildönümü münasibətilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan YAP Ağstafa rayon təşkilatının sədr müavini Lalə Eyyubova bu əlamətdar hadisə münasibətilə tədbir iştirakçılarını təbrik edib. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə YAP-ın yaradılmasının tarixi hadisə olduğunu deyən L.Eyyubova bildirib ki, bu hadisə Azərbaycan üçün dönüş nöqtəsi oldu. Onun sözlərinə görə, qısa müddət ərzində Yeni Azərbaycan Partiyası ümumxalq partiyasına çevrildi: **"Yarandıqdan bu günə qədər partiyamız çox böyük, şərəfli və uğurlu yol keçib. Bu gün sıralarımızda 700 mindən çox üzv vardır. Hazırda Yeni Azərbaycan Partiyası cəmiyyətin avanqard siyasi təşkilatı, beynəlxalq aləmdə böyük nüfuza malik olan bir qüvvədir".**

Ağstafa rayon təhsil şöbəsinin müdiri Kamran Abbasov çıxış edərək bildirib ki, YAP Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranıb. Onun sözlərinə görə, partiyamızın qurucusu, Ulu öndər Heydər Əliyev Öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirib və xalqımızın taleyində silinməz izlər qoyub. Bu izlərdən biri də Yeni Azərbaycan Partiyasıdır: **"Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyası bizim qarşımızda xalqımıza, dövlətimizə sədaqətlə xidmət etmək, həyatda fəal olmaq və Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasında yaxından iştirak etmək kimi önəmli vəzifələr qoyur. Biz bu vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışırıq".**

Tədbirdə həmçinin YAP Ağstafa rayon təşkilatının Qadınlar Şurasının sədri Şəhanə Osmanova, təşkilatın Gənclər Birliyinin sədri Elvin İmaməliyev, YAP fəalları Xəyalə Rüstəmova, Səlim Novruzov, Əli Əliyev, Yaqub İsmayılov, Sahib Salıfov və başqaları çıxış edərək Yeni Azərbaycan Partiyasının cəmiyyətdəki mövqeyindən danışıblar.

## Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü münasibətilə YAP İsmayıllı rayon təşkilatında tədbir keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) İsmayıllı rayon təşkilatında partiyanın yaradılmasının 26-cı ildönümü münasibətilə geniş tədbir keçirilib. Tədbirdə İsmayıllı rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov, YAP İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova, təşkilatın Şura üzvləri, ərazi ilk partiya təşkilatlarının sədrləri və partiya fəalları iştirak ediblər.

Tədbir iştirakçıları öncə Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb, Ulu öndərin xatirəsinə ehtiramlarını bildiriblər. Daha sonra tədbirdə Yeni Azərbaycan Partiyasının ötən 26 il ərzindəki fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə açan YAP İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova partiyanın yarandığı mürəkkəb tarixi-siyasi şəraitdən, keçdiyi çətin və şərəfli mübarizə yolundan, Heydər Əliyevin xalqın və dövlətin qarşısında göstərdiyi xidmətlərdən danışıb. Tədbirdə həmçinin YAP İsmayıllı rayon təşkilatının sədr müavini Məhərrəm Əhmədov, YAP İsmayıllı rayon Təşkilatı Gənclər Birliyinin sədri Qönçə Ağazadə, YAP İsmayıllı rayon təşkilatı Qadınlar Şurasının sədri Xuraman Qurbanova və başqaları çıxış edərək Yeni Azərbaycan Partiyasının ölkəmizin inkişafındakı yerindən bəhs açıblar.

Tədbirdə çıxış edən İsmayıllı rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasətin Azərbaycana mühüm uğurlar qazandırdığını diqqətə çatdırıb. M.Sadıqov bildirib ki, bu siyasətin davamı ölkəmizi daha da işıqlı gələcəyə aparacaq və dünyadakı nüfuzunu möhkəmləndirəcək: **"Dövlətimizin hərtərəfli inkişafı və xalqımızın tərəqqisi naminə həyata keçirilən islahatlar ölkəmizin daha böyük və əsaslı uğurlarına zəmin yaradıb. Bu gün ölkəmizin dünyada söz sahibinə çevrilməsi, bütün sahələr üzrə dinamik və məqsədyönlü uğurlara imza atması iqtidar-xalq birliyinin, həmrəyliyinin məntiqi nəticəsidir".**

Tədbirin sonunda YAP sıralarına yeni üzv qəbul edilən bir qrup gəncə üzvlük vəsiqələri təqdim edilib. YAP İsmayıllı rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup partiya fəalı təltif olunub.

## YAP Samux rayon təşkilatı partiyanın yaranmasının 26-cı ildönümü münasibəti ilə tədbir keçirib





Dünən Yeni Azərbaycan Partiyasının (YAP) Samux rayon təşkilatı tərəfindən partiyanın yaradılmasının 26-cı ildönümü münasibətilə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov partiyanın yaranma tarixindən, həmin dövrdəki ictimai-siyasi şəraitdən danışıb. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası 26 il ərzində zəngin və şərəfli inkişaf yolu keçib. Təşkilat sədri əlavə edib ki, Ulu öndər Heydər Əliyevin qurucusu olduğu YAP-ın ölkəmizin tərəqqisində, dövlətçiliyimizin möhkəmlənməsində misilsiz xidmətləri var. G.Bayramov əlavə edib ki, Yeni Azərbaycan Partiyası Ulu öndər Heydər Əliyevin siyasi kursunu layiqli davamçısı Prezident İlham Əliyevin Sədrliyi ilə öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirir.

Samux rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev isə diqqətə çatdırıb ki, YAP ictimai-siyasi zərurətdən yaranan ümumxalq partiyasıdır. O, Yeni Azərbaycan Partiyasının öz fəaliyyətini Ümummilli lider Heydər Əliyevin ideyaları əsasında davam etdirdiyini qeyd edib. A.Qocayev əlavə edib ki, bu gün ölkəmiz Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir, bütün sahələrdə möhtəşəm nailiyyətlər əldə edilib.

Sonra tədbirdə YAP Samux rayon təşkilatının Qadınlar Şurasının sədri Kəmalə Xəlilova, Zazalı kənd tam orta məktəbin direktoru Ceyhun Mürsəlzadə və YAP Samux rayon təşkilatı Gənclər Birliyinin üzvü Qurban Həsənov çıxış edərək partiyanın ölkəmizin tərəqqisində, müstəqil dövlətçiliyimizin əsaslarının möhkəmlənməsində tarixi rolu və misilsiz xidmətlərindən bəhs ediblər.

Sonda ictimai-siyasi fəallığı ilə seçilən bir qrup partiya üzvünə Fəxri fərmanlar və hədiyyələr, YAP sıralarına yeni qoşulan şəxslərə isə üzvlük vəsiqələri təqdim olunub.

## Tarixi zərurətdən yaranan YAP ümumxalq partiyası kimi bütün proseslərdə öndə olub





Yeni Azərbaycan Partiyasının (YAP) yaranmasının 26-cı ildönümü münasibətilə Yevlaxda tədbir keçirilib. Tədbir iştirakçıları öncə Ulu öndər Heydər Əliyevin rayondakı abidəsi önünə güllər düzərək, əziz xatirəsini ehtiramla yad ediblər.

Sonra Yevlax şəhər Şahmat məktəbinin akt zalında keçirilən tədbirdə dövlət himni səsləndirilib və "Yeni Azərbaycan Partiyası 26 il uğurla" adlı videoçarx nümayiş olunub.

Çıxış edən YAP Yevlax rayon təşkilatının sədr müavini Vahid Quliyev deyib ki, Yeni Azərbaycan Partiyası ötən müddət ərzində şərəfli yol keçib. Onun sözlərinə görə, ümumxalq partiyası olan, Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə yaranmış və bu gün Prezident İlham Əliyevin Sədri olduğu YAP-ın nüfuzu gündən-günə artmaqdadır.

YAP Yevlax rayon təşkilatı Qadınlar Şurasının sədri Əminə Əhmədova ötən 26 ildə əldə edilən uğurlar barədə danışıb. Qeyd olunub ki, tarixi zərurətdən yaranan YAP ümumxalq partiyası kimi bütün proseslərdə öndə olub. Natiq onu da bildirib ki, bu gün Heydər Əliyev ideyaları ölkəmizdə uğurla həyata keçirilir: **"Cənab Prezidentimiz İlham Əliyevin Azərbaycanda həyata keçirdiyi dünya miqyaslı layihələr Ulu öndər Heydər Əliyevin arzularının təzahürüdür".**

Sonra çıxış edən YAP Yevlax rayon təşkilatı sədrinin müavini, aparat rəhbəri Əli Quliyev öncə tədbir iştirakçılarını təbrik edib. Əli Quliyev deyib ki, YAP-ın yaranması müstəqillik tariximizdə yeni mərhələnin əsasını qoyub: **"Zamanın tələbi ilə yaranmış, dünənin, bu günün və sabahın partiyası olan YAP 26 il ərzində şərəfli tarixi yol keçərək, müstəqil dövlətimizin möhkəmlənməsində xüsusi rol oynayıb".**

Bildirilib ki, çox çətin dövrdə yaradılan YAP Azərbaycan dövlətçiliyinin, onun dövlət müstəqilliyinin, bu gününün və sabahının qarantıdır: **"Yeni Azərbaycan Partiyası vətəndaşlarımıza və dünya ictimaiyyətinə sübut etdi ki, o, siyasi fəaliyyət göstərməyə, Azərbaycanın taleyüklü məsələlərini həll etməyə qadir bir partiyadır. Ona görə də Yeni Azərbaycan Partiyası yaşayacaq, inkişaf edəcək, xalqımızı, müstəqil dövlətimizi xoşbəxt gələcəyə aparacaq".**

Sonra partiyanın işində fərqləndiklərinə görə bir qrup YAP fəalı fəxri fərman və qiymətli hədiyyələrlə təltif edilib. Tədbir bədii hissə ilə davam edib.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Azərbaycanın regionlarında xalçaçılığın inkişafı diqqət mərkəzində saxlanılır

*2019-cu ildə respublikanın daha 10 şəhər və rayonunda yeni xalçaçılıq müəssisələrinin tikintisi nəzərdə tutulub*






Tarixən Azərbaycanın bölgələrində xalçaçılıq sahəsində zəngin ənənələr formalaşıb. Sənətkarlar yüksək zövqlə toxuduqları xalçalarda yaşam fəlsəfələrini, həyata baxışlarını, inanclarını ilmələrin dili ilə ifadə ediblər. Yeni şəraitdə qeyri-neft iqtisadiyyatı sahəsində istehsal imkanlarının artırılmasını hədəfləyən respublikamızda ən qədim tətbiqi sənət növlərindən olan xalçaçılığın inkişafı da diqqət mərkəzində saxlanılır. Azərbaycan dövləti xalçaçılığın inkişafına maddi və siyasi dəstək tədbirlərini gücləndirməklə regionlarda iqtisadi aktivliyi təmin etmək, xarici bazarlara qeyri-neft sektorundan ixrac həcmlərini artırmaq kimi məqsədləri hədəfləyib. Regionlarda xalçaçılıq üzrə yeni istehsalatların fəaliyyətə başlaması, eyni zamanda, böyük sosial mahiyyət daşıyır. Belə ki, bölgələrdə açılan xalçaçılıq müəssisələri yerli sakinlərin, ələlxüsus da qadınların əmək bazarına inteqrasiyasına yeni imkanlar yaradır.

## YENİ ŞƏRAİTDƏ RESPUBLİKAMIZDA XALÇAÇILIQ ƏNƏNƏLƏRƏ UYĞUN OLARAQ İNKİŞAF ETDİRİLİR

Azərbaycanda xalçaçılığın şərti olaraq 7 məktəbi fərqləndirilir. Bunlar Quba, Abşeron, Şirvan, Gəncə, Qazax-Borçalı, Qarabağ, Təbriz xalçaçılıq məktəbləridir. Hər xalçaçılıq məktəbində toxunan xalçaları ümumi cəhətlər birləşdirsə də, onlar naxış, kompozisiya, rəng həlli və bir sıra texniki xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər.

Yeni şəraitdə də respublikamızda xalçaçılıq regionlarda tarixən təşəkkül tapan ənənələrə uyğun olaraq inkişaf etdirilir və xalqımızın milli kimliyini təsdiqləyən bu qədim sənət növünün təbliği, gənclər arasında təşviqi davamlı olaraq diqqət mərkəzində saxlanılır. Belə ki, ayrı-ayrı regionlarda yeni istehsalatlar yaradılarkən ilk növbədə həmin bölgədə xalçaçılıq üzrə səciyyəvi olan cəhətlər, o cümlədən də qədim xalça çeşnilərində istifadə olunmuş naxışlar mütəxəssislər tərəfindən elmi baxımdan araşdırılır, onların indiki şəraitdə istehsalata tətbiqi imkanları, məqsədəuyğunluğu öyrənilir və yalnız bu kimi proseslərdən sonra xalçaların kütləvi istehsalına başlanılır. Satış bazarlarının tələbi, kadrların hazırlıq səviyyəsinin artırılması, istehsalatların keyfiyyətli xammalla, boyaq maddələri ilə təchizatı kimi məsələlər də diqqət mərkəzində saxlanılır.

İndiyədək respublikamızda xalçaçılığın inkişafına xüsusi diqqət yetirən Prezident İlham Əliyevin qayğısı sayəsində Horadiz, Şəmkir, Quba, Xaçmaz, İsmayıllı və digər bölgələrdə xalçaçılıq müəssisələri istifadəyə verilib. Ağstafa, Qazax, Qəbələ və Tovuzdakı müəssisələr isə istifadəyə hazırdır. Həmçinin respublikanın bölgələrində yeni istehsalatların yaradılması istiqamətində intensiv iş aparılır. Belə ki, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Naxçıvan şəhərində, Qobustan, Şabran, Sabunçu, Abşeron, Kürdəmir, Biləsuvar, Goranboy və Tərtər rayonlarında xalça emalatxanalarının tikintisi və təchizatı işlərinə başlanıb. Bundan başqa, İsmayıllı rayonunda daha bir xalça emalatxanası tikilir. Dövlətimizin başçısı bu emalatxananın tikintisi, avadanlıq və dəzgahlarla təchizatı, infrastrukturunun yaradılması üçün 2018-ci il dövlət büdcəsində nəzərdə tutulan Prezidentin ehtiyat fondundan vəsait ayrılması barədə Sərəncam imzalayıb. 2019-cu ildə əlavə olaraq, 10 şəhər və rayonda bu cür müəssisələrin tikintisi planlaşdırılır.

## "AZƏRXALÇA"NIN AĞDAM FİLİALINDA 90 NƏFƏR YERLİ SAKİN İŞLƏ TƏMİN OLUNUB

Respublikamızın bölgələrində yeni xalçaçılıq müəssisələrindən biri noyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Ağdam rayonunun Quzanlı qəsəbəsində istifadəyə verilib. Açılış mərasimində qeyd olunduğu kimi, "Azərxalça"nın Ağdam filialında Qarabağ xalçaçılıq məktəbinin ənənələri davam etdiriləcək.

Açılış mərasimində "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Vidadi Muradov görülən işlərlə bağlı məlumat verərək bildirib ki, filialın binasının ümumi sahəsi 1250 kvadratmetrdir. Ağdam rayonunun Quzanlı qəsəbəsindəki Heydər Əliyev prospektində yerləşən binada tikinti işləri yüksək keyfiyyətlə aparılıb. Burada 150 toxucu və 14 inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub. İlkin mərhələdə artıq 90 nəfər yerli sakin işlə təmin olunub.

Bildirilib ki, bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça satışı salonu və digər bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq. Əsasən Ağdam, Bərdə, Beyləqan, Cəbrayıl, Füzuli, Kəlbəcər, Qubadlı, Xocalı, Laçın, Şuşa və Zəngilan rayonlarının kəndlərində toxunan tarixi və orijinal Qarabağ xalça çeşnilərinin toxunmasına üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb.

## LƏNKƏRANDA AÇILAN YENİ XALÇAÇILIQ MÜƏSSİSƏSİ BÜTÜN ZƏRURİ XAMMAL VƏ AVADANLIQLA TƏCHİZ EDİLİB

2018-ci il 15 oktyabr tarixində Lənkəranda açılan yeni xalçaçılıq müəssisəsi bütün zəruri xammal və ləvazimatlarla - müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilib. Müəssisənin binasının ümumi sahəsi 1249 kvadratmetrdir. Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 199-cu kilometrliyində yerləşən filialın binasının tikintisinə bu ilin martında başlanılıb. Tikinti işləri yüksək keyfiyyətlə aparılıb. Burada 150 toxucu və 14 inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub. Bina toxuculuq emalatxanası, inzibati otaq, anbar, yeməkxana, tibb otağı, xalça satışı salonu, konfrans zalı və digər bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq. Əsasən Astara, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonlarının kəndlərində toxunan orijinal xalça çeşnilərinə üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin bölgənin müxtəlif kəndlərindən toplanan qədim və orijinal xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb.

Müəssisədə çalışan toxucular Lənkəran şəhərinin və rayonun digər yaşayış məntəqələrinin sakinləridir. Onlar bir neçə ay ərzində "Azərxalça"nın burada təşkil olunmuş tədris-hazırlıq kurslarına cəlb edilib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da işini davam etdirəcək. Bu kursun məzunları "Azərxalça" ASC-nin sertifikatını alacaqlar. Xalça satışı salonunda "Azərxalça" ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgisi və satışı da həyata keçiriləcək.

## AZƏRBAYCAN XALÇALARININ ŞÖHRƏTİ DÜNYANI GƏZİR

Azərbaycan xalçaları qiymətli eksponatlar kimi dünyanın ən məşhur muzeylərində qorunub saxlanılır və böyük tamaşaçı marağına səbəb olur. Təbrizdə toxunmuş məşhur "Şeyx Səfi" xalısını buna nümunə göstərmək mümkündür. Zəngin naxışları ilə göz oxşayan bu qiymətli sənət əsəri hazırda London muzeyində saxlanılır. Rəngbərəng ilmələrdən toxunan xalçalar təkrarsız sənət nümunələri olmaqla əsrlər boyu dünya miqyasında keçmişimizi, bu günümüzü, mədəniyyətimizi, milliliyimizi layiqincə təmsil edib. Qeyd edək ki, 2010-cu ildə Azərbaycanın ənənəvi xalçaçılıq sənəti UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsin reprezentativ siyahısına salınıb.

Deyilənlərdən də göründüyü kimi, xalçalarımızın şöhrəti bütün dünyanı gəzir. "Carpet XL" jurnalının 4-cü sayında Azərbaycan xalçaçılığından bəhs edən növbəti yazının dərc olunması bunu bir daha təsdiqləyir. Məqalədə qədim xalçaçılıq ənənələrimizdən, müasir dövrdə respublikamızda xalçaçılığın inkişafından, "Azərxalça"nın fəaliyyətindən ətraflı bəhs edilib.

Bildirilib ki, tarixən Azərbaycanda orijinal çeşnili, öz naxışları ilə seçilən xalçalar toxunub. Bu xalçalar Bakı (Abşeron), Qarabağ, İrəvan, Naxçıvan, Gəncə, Şirvan, Qazax-Borçalı, Quba, Təbriz qrupları üzrə təsnif və tədqiq edilir. Dünya bazarlarına çıxarılan Azərbaycan xalçaları həmişə böyük maraqla qarşılanıb.

Qeyd olunub ki, dövrümüzə qədər gəlib çatan ən qədim Azərbaycan xalçaları 16-cı əsrdə toxunan "Əjdahalı" xalçalardır. Əsasən XVI-XVIII əsrlərdə toxunan bu xalçanın qədim nümunələrinə dünyanın məşhur incəsənət muzeylərində və şəxsi kolleksiyalarda rast gəlmək mümkündür.

Məqalədə Azərbaycanda boyaqçılıq sənətinin inkişaf tarixinə də nəzər salınıb. Vurğulanıb ki, Azərbaycanın xalçaçılıq və boyaqçılıq tarixini bir-birindən ayrı təsəvvür etmək mümkün deyildir. XIX əsrin ortalarında burada istehsal olunan təbii boyaq maddələri daxili ehtiyacları ödəməklə yanaşı, həm də xaricə ixrac edilib.

Respublikamızın bölgələrində "Azərxalça"nın yaratdığı filiallar barədə də məlumat verən müəllif xalça emalatxanalarında istehsal olunan məhsulların keyfiyyətini xüsusi qeyd edib. Yazıda Qusarın Laza kəndinin, Şamaxının yun bazarının, qədim Azərbaycan xalçalarının və "Azərxalça"nın istehsalı olan məhsulların fotoşəkilləri də təqdim olunub.

Qeyd edək ki, Almaniyanın Hamburq şəhərində fəaliyyət göstərən "SN Verlag" Nəşr Evi tərəfindən ildə 4 dəfə ingilis və alman dillərində dərc olunan bu jurnalın əsas oxucuları Amerika Birləşmiş Ştatları və Avropa ölkələrindədir.

Daha çox biznes sektorunda yayılan bu jurnalda Azərbaycan xalçalarının təbliğ olunması mühüm əhəmiyyət daşıyır. Çünki səhifələrində klassik xovlu və xovsuz xalçalara, modern xalçalara geniş yer verən bu jurnalın əsas oxucuları xalçaçılıq üzrə aparıcı şirkətlərin rəhbərləri, pərakəndə satış sektorunun nümayəndələri, ABŞ və Avropa ölkələrində fəaliyyət göstərən xalça satışı mərkəzlərinin, mağazalarının təmsilçiləridir.

**Mübariz ABDULLAYEV**

# Mingəçevirdə YAP-ın yaranmasının 26-cı ildönümü münasibətilə tədbir keçirilib




Yeni Azərbaycan Partiyasının (YAP) yaranmasının 26-cı ildönümü münasibətilə YAP Mingəçevir şəhər təşkilatı və Mingəçevir şəhər İcra Hakimiyyəti birgə tədbir keçirib. Tədbirdə çıxış edən YAP Mingəçevir şəhər təşkilatının sədri Cavanşir Yusubov əlamətdar hadisə münasibətilə partiyanın üzvlərini təbrik edib. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə YAP-ın yaradılmasının tarixi hadisə olduğunu deyən C.Yusubov bildirib ki, bu hadisə Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, qısa müddət ərzində Yeni Azərbaycan Partiyası ümumxalq partiyasına çevrildi: **"Yarandıqdan bu günə qədər partiyamız çox böyük, şərəfli və uğurlu yol keçib. Bu gün sıralarımızda 700 mindən çox üzv vardır. Hazırda Yeni Azərbaycan Partiyası cəmiyyətin avanqard siyasi təşkilatı, beynəlxalq aləmdə böyük nüfuza malik olan bir qüvvədir".**

Sonra Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısının I müavini İlham İsmayılov çıxış edərək bildirib ki, YAP Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranıb. Onun sözlərinə görə, partiyamızın qurucusu, Ulu öndər Heydər Əliyev Öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirib və xalqımızın taleyində silinməz izlər qoyub. İ.İsmayılov qeyd edib ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə YAP böyük uğurlara imza atır. O həmçinin Mingəçevirdə həyata keçirilən abadlıq və quruculuq işləri haqqında da məlumat verib.

Daha sonra YAP şəhər təşkilatının 38 saylı ərazi ilk partiya təşkilatının sədri, Mingəçevir Turizm Kollecinin direktoru Əyyub Əyyubov partiyanın keçdiyi tarixi yol haqqında fikirlərini bildirib.

Sonda YAP sıralarına yeni qəbul olunmuş şəxslərə partiya vəsiqələri təqdim edilib.

# Goranboyda YAP-ın yaranmasının 26-cı ildönümü münasibəti ilə tədbir keçirilib




Noyabrın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) Goranboy rayon təşkilatı Qadınlar Şurası və rayon təşkilatının Mədəniyyət və turizm şöbəsi ərazi ilk partiya təşkilatının birgə təşəbbüsü ilə partiyanın yaradılmasının 26-cı ildönümü münasibətilə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan YAP Goranboy rayon təşkilatının aparat rəhbəri Əzra Həşimova qeyd edib ki, Ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası milli maraqlara xidmət edən çoxşaxəli və səmərəli fəaliyyəti ilə Azərbaycan cəmiyyətinin bütün təbəqələrindən olan insanları öz sıralarında birləşdirib. Ə.Həşimova əlavə edib ki, partiyamız bu günə qədər qatıldığı bütün seçkilərdə möhtəşəm zəfərlərin altına imza ataraq qələbələr partiyası olduğunu sübuta yetirib.

YAP Goranboy rayon təşkilatı İdarə Heyətinin üzvü Gündüz Hacıyev Ulu öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının Prezident İlham Əliyevin Sədrliyi ilə öz fəaliyyətini uğurla davam etdirdiyini diqqətə çatdırıb. O, YAP-ın qələbələr və ümumxalq partiyası olduğunu bildirib.

Sonra tədbirdə Əməkdar müəllim Afaq Axundova, ilk partiya təşkilatının sədr müavini Kamalə Axundova, YAP Goranboy rayon təşkilatı Qadınlar Şurasının üzvü Səidə Abdullayeva və Təzəgül Abbasova çıxış edərək Yeni Azərbaycan Partiyasının 26 il ərzində zəngin və şərəfli inkişaf yolu keçdiyini diqqətə çatdırıblar.

# Dövlət büdcəsindən maliyyələşən qurumlarda yaranan debitor borcların təhlili aparılıb

Azərbaycan Respublikası Hesablama Palatasının növbəti kollegiya iclasında Dövlət İnvestisiya Proqramının və dövlət büdcəsindən maliyyələşən qurumlarda yaranan debitor borcların təhlilinin nəticələrinə dair nəzarət tədbirləri üzrə rəylər müzakirə olunub.

Hesablama Palatasından AZƏRTAC-a bildiriblər ki, iclasda hər bir nəzarət tədbiri üzrə kollegiya qərarının layihəsi müzakirə edilərək təsdiq olunub. Həmin qərarların icrasını təmin etmək məqsədilə aidiyyəti dövlət qurumlarına təqdimatların göndərilməsi və nəzarət tədbirlərinin nəticələri barədə məlumatların Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunması qərara alınıb.

İclasda aparılmış audit tədbirlərinin nəticələri üzrə təqdimatların icrası vəziyyəti barədə auditorların məlumatı dinlənilib, müvafiq qərarlar qəbul edilib, həmçinin Hesablama Palatasının iş planında nəzərdə tutulmuş nəzarət tədbirləri ilə bağlı proqramlar təsdiq olunub.

# Bakcell "ASAN Məktub"dan təşəkkürnamə alıb




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti "ASAN Məktub" təşəbbüsündə fəal iştirakına görə təşəkkürnamə ilə təltif olunub.

"ASAN Könüllüləri" Təşkilatının "ASAN Məktub" layihəsinin əsas məqsədi həssas qruplara aid olan uşaqlara sevinc bəxş etmək və cəmiyyətdə sosial məsuliyyət və qayğı hissini daha da artırmaqdır.

Noyabr ayının 21-də layihənin 3 yaşına həsr edilmiş xüsusi tədbir keçirilib. Tədbirdə bu təşəbbüsə dəstək göstərən tərəfdaşlara təşəkkürnamələr təqdim edilib.

"Bakcell Stars" Korporativ Sosial Məsuliyyət proqramı vasitəsilə xüsusi qayğıya ehtiyacı olan və həssas qruplara aid uşaqları daim diqqət mərkəzində saxlayan Bakcell şirkəti davamlı şəkildə "ASAN Məktub" layihəsinə verdiyi dəstəyə görə təşəkkürnamə ilə təltif edilib.

**"Bakcell şirkəti xüsusi qayğıya ehtiyacı olan uşaqlara dəstək göstərilməsi, onlar üçün bərabər hüquqların, inklüziv təhsil imkanlarının təmin edilməsinə yönəlmiş bir çox layihələrdə fəal iştirak edərək minlərlə uşağa dəstək göstərib. "ASAN Məktub" layihəsi uşaqları sevindirmək və onların saf arzularını həyata keçirə bilmək bizim üçün bizə daha böyük imkan yaradıb",** - deyə Bakcell şirkətinin İctimaiyyətlə Əlaqələr və Korporativ Kommunikasiya departamentinin rəhbəri Süheylə Cəfərova bildirib.

Uşaqların saf arzularını reallığa çevirən "ASAN Məktub" layihəsi www.asanmektub.az internet səhifəsi vasitəsilə 14 yaşadək olan uşaqları əhatə edir. Layihə çərçivəsində uşaqların yazdığı məktublar sayta yerləşdirilir və onların istəkləri müxtəlif şirkətlər və xeyirxah vətəndaşlar tərəfindən gerçəyə çevrilir. Bakcell şirkəti layihəyə həmçinin mobil rabitə dəstəyi göstərir.

## İTMİŞDİR

Bakı Slavyan Universitetinin I kurs, 108-ci qrup tələbəsi Vəliyeva Məryəm Azər qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Aqşin ŞAHİNOĞLU